RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 18 (9763) 28 yanvar 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Yüksələn qlobal nüfuz, artan iqtisadi güc

## İlham Əliyevin Davosda qarşı tərəflərin müraciətləri əsasında keçirdiyi görüşlər Azərbaycana siyasi-iqtisadi dividendlər gətirəcək

**Ötən həftə dünyanın qlobal güclərinin diqqəti yenə də Davosa kökləndi. Yanvarın 20-dən 24-nə qədər Davosda Dünya İqtisadi Forumunda qlobal güclər mühüm məsələlər ətrafında müzakirələr apardılar. 1974-cü ildən sonra, demək olar, hər il keçirilən forumda ənənəvi mövzularla yanaşı, yeni dövrün çağırışları, texnoloji inqilab, süni intellektin təklif etdiyi imkanlar, yaratdığı təhlükələr və gələcəkdə transformasiya potensialı ilə bağlı müxtəlif formatlarda debatlar olub. Builki foruma isə 130-dan çox ölkədən 350 hökumət nümayəndəsi, o cümlədən 60 dövlət və hökumət başçısı qatılıb.**

Beynəlxalq münasibətlər sistemində qeyri-müəyyənliyin genişləndiyi, bir çox bölgələrdə münaqişələrin davam etdiyi vaxtda dünya liderləri, eləcə də özəl sektorun yüksəksəviyyəli nümayəndələri yenidən bir araya gələrək "ağıllı əsr" üçün əməkdaşlıq imkanlarını dəyərləndirdilər. Təsadüfi deyil ki, Davos forumu çərçivəsində aparılan müzakirələrdə özəl və dövlət sektorunun liderləri birlikdə işləməyə çağırıldı, qlobal iqtisadiyyatın bağlarını qırmağın heç kimin marağında olmadığı bir daha bəyan edildi.

2025-ci ilin Dünya İqtisadi Forumu "Ağıllı əsr üçün əməkdaşlıq" mövzusunda qlobal çağırışlara toxundu. Forumda iqtisadi artımın yenidən başlaması, ən müasir texnologiyaların tətbiqi, geosiyasi gərginliklər və iqlim dəyişikliyinin sürətləndirilməsi fonunda sosial və iqtisadi dayanıqlılığın gücləndirilməsi məsələləri də müzakirə olundu.

Ümumiyyətlə, beynəlxalq səviyyədə ən mühüm tədbirlərdən olan forum bir sıra ölkə liderini, əsas beynəlxalq aktorları və ekspertləri bir məkanda birləşdirən nəhəng platformadır.

Prezident İlham Əliyev hər il foruma dəvətlilər sırasında olur. Foruma beyin mərkəzləri, qlobal layihələrlə bağlı təkliflər irəli sürən, çıxış yolu göstərən mütəxəssislər dəvət edilirlər. Azərbaycan Prezidenti də dünyada baş verən qlobal hadisələri dəyərləndirmək bacarığı, analiz etmək qabiliyyəti, qiymətləndirmək istedadı, qətiyyətli fikir söyləmək imkanına sahib lider kimi tanınır. Bu səbəbdən də İlham Əliyev qlobal iqtisadi tədbirin ən nüfuzlu qonaqları sırasında olur.

→ 7

# İlham Əliyev Aleksandr Lukaşenkonu təbrik edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya zəng edib.

Dövlətimizin başçısı Aleksandr Lukaşenkonu Belarus Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik edib, fəaliyyətində uğurlar arzulayıb.

Prezident Aleksandr Lukaşenko göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib.

Telefon danışığı əsnasında dövlət başçıları iki ölkə arasında dostluq və tərəfdaşlıq əlaqələrinin bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyinə əminliklərini ifadə edərək, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat xidməti***

# "Seçkilərdə inamlı qələbəniz Sizə yüksək etimadın təzahürüdür"

## Belarus Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandr Lukaşenkoya

Hörmətli Aleksandr Qriqoryeviç!

Belarus Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Seçkilərdə inamlı qələbəniz Sizə yüksək etimadın, Belarus xalqının Sizin dövlətçiliyin və hüquq qaydasının möhkəmləndirilməsinə, ölkə əhalisinin rifahının yaxşılaşdırılmasına, cəmiyyət həyatının bütün sahələrində demokratik dəyişikliklərin həyata keçirilməsinə yönəlmiş ardıcıl kursunuzu dəstəkləməsinin təzahürüdür.

Əminəm ki, birgə səylərimiz Azərbaycan ilə Belarus arasında ənənəvi dostluğun, hərtərəfli əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə və genişlənməsinə, xalqlarımızın və ölkələrimizin rifahı naminə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına bundan sonra da töhfə verəcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dost Belarus xalqının tərəqqisi naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 27 yanvar 2025-ci il*

# Azərbaycan qazının Sloveniya bazarına çatdırılması əlaqələrimizin inkişafında mühüm addımdır

## Prezident İlham Əliyev Sloveniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



→ 2

# Əməkdaşlığımızın cəlbedici sahələrinin müəyyənləşdirilməsi zəruridir

## Prezident İlham Əliyev Qvineyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



→ 2

# Dövlət gənclərin dayağıdır

## İnsan kapitalına, gənc nəslin mənəvi və fiziki sağlamlığına xidmət edən siyasət ötən il də davam etmişdir

2024-cü ildə həyata keçirilən gənclər siyasəti də bu nəslin ictimai həyata daha fəal inteqrasiyası, onlara yeni imkanların yaradılması və yaradıcı potensialının kəşf edilərək dəstəklənməsi əsasında qurulmuşdur.

Prezident İlham Əliyevin 1 fevral 2024-cü il tarixli sərəncamı ilə 10 gənc Azərbaycan Respublikası Prezidentinin mükafatlarına layiq görülmüşdür. Bu mükafatlar onların elm, incəsənət və digər sahələrdəki nailiyyətlərini tanımaq, böyüməkdə olan nəslə yeni imkanlar yaratmaq məqsədi daşıyır. Belə addımlar gəncləri yaradıcılıq sahəsində daha aktiv fəaliyyətə ruhlandırır.

Məlum olduğu kimi, Prezidentin 17 aprel 2024-cü il tarixli sərəncamı ilə Şuşa şəhəri "İslam Əməkdaşlıq Təşkilatının Gənclər Paytaxtı" elan edilmişdir. Bu qərar Zəfər rəmzimiz olan Şuşanın tarixi-mədəni əhəmiyyətini beynəlxalq gənclər platformasında tanıtmaqla yanaşı, gənclərin müdafiəsi və sosial iştiraklığına imkan yaratmışdır.

→ 6

# Azərbaycanda müxtəlif dinlərin nümayəndələri dostluq, əmin-amanlıq və harmoniya şəraitində yaşayırlar

## Prezident İlham Əliyev İsrail İqtisadi Forumunun həmtəsisçisi və İdarə Heyətinin üzvünü qəbul edib



→ 2

# Paşinyan separatizmə açıq dəstək verir

## O, səsləndirdiyi gülünc iddialarla Ermənistanın Azərbaycana qarşı hələ də ərazi iddiası güddüyünü nümayiş etdirir

2023-cü ilin sentyabrında Azərbaycan Qarabağda apardığı 23 saatlıq antiterror tədbirləri nəticəsində bütün ərazilərimizdə suverenliyini tam bərpa edib. İllərdir sürdürülən sərsəm "Miatsum" planları məhv edilib, qanunsuz rejimin "bayraq" adlandırdığı əski parçası layiq olduğu yerə - ayaqlarımızın altına atılıb, xuntaçılar isə bir-bir yaxalanaraq Azərbaycan qanunları qarşısında cavab verməkdən ötrü Bakıya gətirilib.

→ 9

# Azərbaycan qazının Sloveniya bazarına çatdırılması əlaqələrimizin inkişafında mühüm addımdır

## Prezident İlham Əliyev Sloveniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Sloveniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qorazd Rençelin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Səfir Qorazd Rençel ilk növbədə COP29-un uğurla keçirilməsi və əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev bu konfransın hazırlıq işlərinə az müddət qalmasına baxmayaraq, Azərbaycan tərəfindən həmin tədbirin uğurla təşkil olunduğunu vurğuladı, COP29-un ölkəmizdə indiyədək keçirilən ən böyük beynəlxalq tədbir olduğunu məmnunluqla qeyd etdi. Sloveniyanın bu tədbirdə fəal iştirakını yüksək qiymətləndirən dövlətimizin başçısı COP29-da təmsil olunan xeyli sayda ölkələr arasında konsensusun əldə edilməsinin önəminə toxundu, tədbir çərçivəsində beynəlxalq iqlim gündəliyinin irəli aparılması üçün səmərəli nəticələrin olduğunu vurğuladı.

Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin yaxşı tarixə malik olduğunu deyərək, iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərlərini xatırladı və bu səfərlər zamanı müxtəlif istiqamətlər üzrə məhsuldar müzakirələrin aparıldığını məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirdi.

Görüşdə Azərbaycanla Sloveniya arasında siyasi dialoqun dinamik surətdə inkişaf edəcəyinə ümidvarlıq ifadə olundu, yaxın vaxtlarda iki ölkənin xarici işlər nazirləri arasında siyasi məsləhətləşmələrin və iqtisadi əməkdaşlıq məsələləri üzrə işçi qrupunun toplantısının keçiriləcəyi bildirildi, yüksəksəviyyəli qarşılıqlı səfərlərin təşkil olunacağı qeyd edildi.

Səfir Azərbaycanın Cənubi Qafqaz regionunda, həmçinin Trans-Xəzər nəqliyyat dəhlizində mühüm rola malik ölkə olduğunu vurğuladı.

Söhbət zamanı Azərbaycanla Sloveniya arasında enerji sahəsində əməkdaşlığın inkişafına toxunuldu, Azərbaycan qazının Sloveniya bazarına çatdırılması əlaqələrimizin inkişafında mühüm addım kimi dəyərləndirildi.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Əməkdaşlığımızın cəlbedici sahələrinin müəyyənləşdirilməsi zəruridir

## Prezident İlham Əliyev Qvineyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Qvineya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Umar Kandenin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı siyasi və iqtisadi əlaqələrimizin uğurla inkişaf edəcəyinə ümidvarlığını bildirərək, ölkələrimizin bir sıra beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də, İslam Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında fəal və uğurlu əməkdaşlıq etdiklərini dedi, bu çərçivədə qarşılıqlı dəstəyə əsaslanan əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev əməkdaşlığımızın cəlbedici sahələrinin müəyyənləşdirilməsinin də zəruriliyini qeyd etdi.

Ölkəmizdə Afrikadan çoxsaylı tələbələrin təhsil aldığını deyən dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına və İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərdən olan tələbələr üçün təqaüd proqramları təqdim etdiyini bildirdi, qvineyalı tələbələrin də bundan yararlana biləcəklərini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın özünün ASAN və DOST xidmət təcrübəsini bir sıra ölkələrlə bölüşdüyünü qeyd edərək, bu sahədə Qvineya ilə də əməkdaşlıq imkanlarının olduğunu dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir ilk növbədə Qvineya Respublikasının Prezidenti Mamadi Dumbuyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Qvineya Prezidentinə çatdırmağı xahiş etdi.

Səfir Umar Kande Qvineya Prezidenti və ölkəsi adından təyyarə qəzası ilə bağlı Azərbaycan Prezidentinə və xalqına başsağlığını çatdırdı.

Umar Kande ölkəsinin Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığın həyata keçirilməsində maraqlı olduğunu dedi və ölkəmizlə strateji tərəfdaşlığın qurulacağına ümidvar olduqlarını bildirdi. O qeyd etdi ki, bu isə öz növbəsində xüsusilə də BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və Qoşulmama Hərəkatında müştərək təşəbbüslərin irəli sürülməsinə xidmət edəcək. Beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrimizdən məmnunluğunu ifadə edən səfir ölkələrimiz arasında təhsil, mədənçilik, elektron hökumət sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğuladı.

Söhbət zamanı ölkəmizin aidiyyəti iqtisadi qurumları ilə birbaşa əlaqələrin yaradılmasının, iqtisadi əməkdaşlıq perspektivlərinin araşdırılmasının və onun inkişaf etdirilməsi üçün iqtisadi sahə üzrə nümayəndə heyətlərinin mübadiləsinin vacibliyi qeyd olundu.

# Azərbaycanda müxtəlif dinlərin nümayəndələri dostluq, əmin-amanlıq və harmoniya şəraitində yaşayırlar

## Prezident İlham Əliyev İsrail İqtisadi Forumunun həmtəsisçisi və İdarə Heyətinin üzvünü qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də İsrail İqtisadi Forumunun həmtəsisçisi və İdarə Heyətinin üzvü Conatan Misneri qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanda tarixən olduğu kimi bu gün də müxtəlif dinlərin və konfessiyaların, o cümlədən yəhudi icmasının nümayəndələrinin dostluq, əmin-amanlıq və harmoniya şəraitində yaşadıqlarını vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, bu, xalqımızın həyat tərzi olmaqla yanaşı, eyni zamanda Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin tərkib hissəsidir.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan öz təcrübəsindən çıxış edərək dünya səviyyəsində də dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqində mühüm rol oynayır, bundan sonra da öz töhfəsini verməkdə davam edəcək.

Qonaqlar Azərbaycanda tarixən yəhudi icmasının nümayəndələrinin dinc şəraitdə yaşamaları üçün yaradılmış şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

Onlar ölkəmizə səfər çərçivəsində, həmçinin Quba rayonuna da gedəcəklərini və oradakı yəhudi icmasının yaşayış şəraiti ilə yerində tanış olacaqlarını dedilər.

Azərbaycanın işğaldan azad olunmuş torpaqlarına səfər etdiklərini vurğulayan qonaqlar həmin ərazilərimizdə qısa müddətdə həyata keçirilən bərpa-quruculuq işlərinin onlara böyük təəssüratlar bağışladığını qeyd etdilər.

Bu səfər çərçivəsində dünyanın müxtəlif ölkələrindən çoxsaylı yəhudi iş adamlarının ölkəmizə gəldiyini deyən qonaqlar Azərbaycanın biznes və investisiya üçün cəlbedici ölkə olduğunu vurğulayaraq, bu sahədə əməkdaşlığın perspektivlərini müzakirə etdilər.

Görüşdə Azərbaycan-İsrail və Azərbaycan-ABŞ əlaqələrinin perspektivləri barədə fikir mübadiləsi aparıldı.

# "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 125 (Cild I); 2024, № 3, maddə 248) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin birinci hissəsinin iyirmi beşinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda iyirmi altıncı və iyirmi yeddinci abzaslar əlavə edilsin:

**"ödəniş məntəqəsi** - ödənişli avtomagistralla nəqliyyat vasitəsinin gedişi üçün ödəniş əməliyyatının həyata keçirildiyi və buraxılış məntəqələrindən ibarət olan, mühəndis avadanlığının, texniki vasitələrin yerləşdirilməsi üçün nəzərdə tutulmuş tikililər və qurğulardır;

**buraxılış məntəqəsi** - ödənişli avtomagistrallarda nəqliyyat vasitələrinin giriş-çıxışına nəzarət etmək məqsədilə yaradılmış və keçid zolaqlarında quraşdırılmış, foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələr və qurğularla təchiz edilmiş məntəqədir.".

2. 19-cu maddənin ikinci hissəsindən birinci halda "reklam" sözü çıxarılsın.

3. 50-ci maddənin birinci hissəsinin doqquzuncu abzası on birinci abzas hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda doqquzuncu və onuncu abzaslar əlavə edilsin:

"ödəniş məntəqələrindən keçmədən kənar yollardan (yerlərdən) istifadə etməklə, habelə ödənişsiz gediş hüququna malik istifadəçilər üçün müəyyən edilmiş xidməti keçid zolağından belə hüququ olmayan istifadəçilər tərəfindən ödənişli avtomagistrallara daxil olmağa və ya oradan çıxmağa görə;

buraxılış məntəqələrinin normal işinə mane olmağa, o cümlədən buraxılış məntəqələrində nəqliyyat vasitələrinin keçidini bağlamağa, gediş üçün maneəni özbaşına götürməyə (şlaqbaumu açmağa) görə;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2024-cü il*

# "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1012 (Cild I) 4.0.6-cı maddəsinə "məktəbəqədər" sözündən əvvəl "dövlət və bələdiyyə tərəfindən yaradılan" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2024-cü il*

# Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 14-cü bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744; Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 57-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 28.6-cı və 28.7-ci maddələr ləğv edilsin;

1.2. 38.7-ci maddədən "nikaha girdiyi və" və "digər" sözləri çıxarılsın.

**Maddə 2.** "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 11, maddə 920 (Cild I) 3.2.3-cü maddəsindən "və nikah" sözləri çıxarılsın.

**Maddə 3.** Bu Qanun 2025-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2024-cü il*

# İqtisadi Şuranın iclası keçirilib

**Yanvarın 27-də İqtisadi Şuranın iclası keçirilib. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.**



Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Prezident İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına verdiyi geniş müsahibəsindən irəli gələn tapşırıqlar, 2024-cü ilin sosial-iqtisadi inkişaf göstəriciləri və İqtisadi Şuranın 2025-ci il üzrə Fəaliyyət Planı, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda Azad İqtisadi Zonanın (AİZ) yaradılması ilə bağlı məsələlər, ölkəmizin beynəlxalq maliyyə institutları və fondları ilə əməkdaşlığı, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin 2024-cü il üzrə Fəaliyyət Hesabatı və 2025-ci il üçün Fəaliyyət Planı və digər cari məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələlər üzrə iqtisadiyyat naziri Mikayıl Cabbarovun və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının məruzələri dinlənilib. İclasda iştirak edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov da Naxçıvan Muxtar Respublikasında AİZ yaradılması ilə bağlı çıxış ediblər.

Təqdim olunan məsələlərə dair İqtisadi Şura üzvləri tərəfindən geniş müzakirələr aparılıb. İclasın yekununda İqtisadi Şura üzvlərinin təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

## Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən aşağıdakı dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin (Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan işçilər istisna olmaqla) aylıq tarif (vəzifə) maaşları orta hesabla 10 faiz artırılsın:

1.1. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi;
1.2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;
1.3. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi;
1.4. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti;
1.5. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi;
1.6. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidməti və Tibb baş idarəsi;
1.7. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi;
1.8. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti;
1.9. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti;
1.10. Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti;
1.11. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti;
1.12. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti;
1.13. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti;
1.14. Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi.

2. Bu Fərmanın 1.1-1.6-cı bəndlərində nəzərdə tutulan dövlət orqanlarının dövlət qulluqçusu olmayan, əməkhaqları Vahid Tarif Cədvəli əsasında tənzimlənən mülki işçilərinin aylıq tarif (vəzifə) maaşları dövlət büdcəsindən maliyyələşdirilən sahələr üçün qüvvədə olan Vahid Tarif Cədvəlinə uyğun məbləğlərdə müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərmanın 1.1-1.14-cü bəndlərində nəzərdə tutulan dövlət orqanları və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

5. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

---

## Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

---

## Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

---

## Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

---

## Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

---

## Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

---

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

---

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

---

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

---

## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

---

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

---

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

---

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

# "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14 (Cild I); 2024, № 1, maddə 19, № 2, maddə 137, № 7, maddə 755) ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 12-ci maddənin birinci hissəsinin "a" bəndinin dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

"Müvəffəqiyyətsizliklərinə, təhsillərini davam etdirmək istəmədiklərinə və ya intizamsızlıqlarına görə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrindən xaric edilən (18 yaşınadək və ya xəstəliyi ilə əlaqədar hərbi xidmətə yararsız hesab olunduqlarına görə xaric edilən və ya müddətli həqiqi hərbi xidmət keçmiş şəxslər istisna olmaqla) kursantlar müddətli həqiqi hərbi xidmət keçmək üçün hərbi hissələrə göndərilirlər. Bu zaman həmin kursantların hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində aldıqları təhsil müddətinin hər 4 günü 1 gün sayılmaqla müddətli həqiqi hərbi xidmət müddətinə hesablanır və onlar xidmət müddəti başa çatdıqda müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən ehtiyata buraxılırlar.";

1.2. 16-cı maddənin birinci hissəsinin "a" bəndinin üçüncü abzasında "oxumaq" sözü "təhsilini davam etdirmək" sözləri ilə əvəz edilsin;

1.3. 26-cı maddə üzrə:

1.3.1. mətni birinci hissə hesab edilsin;

1.3.2. birinci hissə üzrə:

1.3.2.1. birinci abzasda "Hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü" sözləri "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 36-cı" sözləri ilə əvəz edilsin;

1.3.2.2. "b" bəndinə hər üç halda "təhsil" sözündən sonra "və ya orta ixtisas təhsili" sözləri əlavə edilsin;

1.3.2.3. "v" bəndində "bir il hərbi xidmət keçmiş əsgərlər, matroslar, çavuşlar" sözləri "tam orta təhsilli və bir il hərbi xidmət keçmiş əsgərlər, matroslar, çavuşlar, hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini bitirmiş hərbi qulluqçular" sözləri ilə əvəz edilsin;

1.3.3. aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Bu maddənin birinci hissəsinin "b" bəndinə uyğun olaraq hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrinə qəbul edilərkən 18 yaşı tamam olmayan şəxslərlə bağlaşma onların qanuni nümayəndələrinin - valideyninin, övladlığa götürənin və ya himayəçinin yazılı razılığı ilə bağlanılır.";

1.4. 32-ci maddə üzrə:

1.4.1. birinci hissənin "v" bəndində "oxumaq" sözü "təhsilini davam etdirmək" sözləri ilə əvəz edilsin;

1.4.2. altıncı hissədə "oxumaq" sözü "təhsilini davam etdirmək" sözləri ilə, "hərbi məktəb, gizir, miçman məktəbləri (hərbi hissə komandirləri)" sözləri "hərbi təhsil müəssisələrinin" sözləri ilə əvəz edilsin;

1.5. 38-ci maddənin birinci hissəsi üzrə:

1.5.1. "e" bəndində "tam orta" sözləri "orta ixtisas" sözləri ilə və həmin bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

1.5.2. aşağıdakı məzmunda "j" bəndi əlavə edilsin:

"j) hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini bitirmiş hərbi qulluqçularla.";

1.6. 53-cü və 54-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"53. "Kiçik gizir" və "kiçik miçman" hərbi rütbələri bu Əsasnamənin 38-ci maddəsinin birinci hissəsinin "a", "b", "q" və "e" bəndlərinə uyğun olaraq gizir və miçmanların həqiqi hərbi xidmətinə qəbul edilən orta ixtisas təhsilli şəxslərə və bu Əsasnamənin 38-ci maddəsinin birinci hissəsinin "v" bəndinə uyğun olaraq gizir və miçmanların həqiqi hərbi xidmətinə qəbul edilən tam orta təhsilli şəxslərə verilir;

54. "Gizir" və "miçman" hərbi rütbələri bu Əsasnamənin 38-ci maddəsinin birinci hissəsinin "a", "q" və "e" bəndlərinə uyğun olaraq gizir və miçmanların həqiqi hərbi xidmətinə qəbul edilən ali təhsilli şəxslərə, bu Əsasnamənin 38-ci maddəsinin birinci hissəsinin "j" bəndinə uyğun olaraq gizir və miçmanların həqiqi hərbi xidmətinə qəbul edilən orta ixtisas təhsilli şəxslərə, həmçinin "gizir", "miçman", "baş gizir", "baş miçman" rütbələri nəzərdə tutulmuş vəzifələrə təyin olunmuş və növbəti hərbi rütbə verilməsinə layiq olan kiçik gizir və kiçik miçmanlara verilir.";

1.7. 75-ci maddənin ikinci hissəsində "Gizir" sözü "Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini və gizir" sözləri ilə əvəz edilsin;

1.8. 132-ci maddənin birinci hissəsinə "görə" sözündən sonra "gizir (miçman) və ya" sözləri əlavə edilsin;

1.9. aşağıdakı məzmunda 150-1-ci maddə əlavə edilsin:

"150-1. Müvəffəqiyyətsizliklərinə, təhsillərini davam etdirmək istəmədiklərinə və ya intizamsızlıqlarına görə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrindən xaric edilən kursantlar, habelə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 41.0.6-41.0.8-ci maddələrinə əsasən həqiqi hərbi xidmətdən ehtiyata və həmin Qanunun 42.0.3-cü və 42.0.5-ci maddələrinə əsasən həqiqi hərbi xidmətdən istefaya buraxılan həmin təhsil müəssisələrini bitirmiş kadr zabitlər və gizirlər (miçmanlar) (təqvim hesabı ilə azı 10 il zabit heyəti vəzifələrində xidmət etmiş kadr zabitlər və təqvim hesabı ilə azı 5 il gizir (miçman) heyəti vəzifələrində xidmət etmiş gizirlər (miçmanlar) istisna olmaqla) hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində onların hazırlanmasına çəkilmiş xərclərin əvəzini "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununun 42-1-ci maddəsinə uyğun olaraq ödəməlidirlər.".

**Maddə 2.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56 (Cild I); 2024, № 2, maddə 137, № 4, maddə 363) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 28.4-cü maddə üzrə:

2.1.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Müvəffəqiyyətsizliklərinə, təhsillərini davam etdirmək istəmədiklərinə və ya intizamsızlıqlarına görə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrindən xaric edilən (18 yaşınadək və ya xəstəliyi ilə əlaqədar hərbi xidmətə yararsız hesab olunduqlarına görə xaric edilən və ya müddətli həqiqi hərbi xidmət keçmiş şəxslər istisna olmaqla) kursantlar müddətli həqiqi hərbi xidmət keçmək üçün hərbi hissələrə göndərilirlər.";

2.1.2. ikinci cümləyə "ali təhsil" sözlərindən sonra "və ya orta ixtisas təhsili" sözləri əlavə edilsin;

2.2. 36-cı maddə üzrə:

2.2.1. 36.1.2-ci maddəyə hər üç halda "təhsil" sözündən sonra "və ya orta ixtisas təhsili" sözləri əlavə edilsin;

2.2.2. 36.1.3-cü maddəyə "çavuşlar," sözündən sonra "hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini bitirmiş hərbi qulluqçular," sözləri əlavə edilsin;

2.2.3. "Qeyd" hissənin mətni 2-ci bənd hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda 1-ci bənd əlavə edilsin:

"1. Bu Qanunun 36.1.2-ci maddəsinə uyğun olaraq hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrinə qəbul edilərkən 18 yaşı tamam olmayan şəxslərlə bağlaşma onların qanuni nümayəndələrinin - valideyninin, övladlığa götürənin və ya himayəçinin yazılı razılığı ilə bağlanılır.";

2.3. aşağıdakı məzmunda 42-1-ci maddə əlavə edilsin:

"Maddə 42-1. **Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində kursantların hazırlanmasına çəkilmiş xərclərin əvəzinin ödənilməsi**

42-1.1. Müvəffəqiyyətsizliklərinə, təhsillərini davam etdirmək istəmədiklərinə və ya intizamsızlıqlarına görə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrindən xaric edilən kursantlar, habelə bu Qanunun 41.0.6-41.0.8-ci maddələrinə əsasən həqiqi hərbi xidmətdən ehtiyata və bu Qanunun 42.0.3-cü və 42.0.5-ci maddələrinə əsasən həqiqi hərbi xidmətdən istefaya buraxılan həmin təhsil müəssisələrini bitirmiş kadr zabitlər və gizirlər (miçmanlar) (təqvim hesabı ilə azı 10 il zabit heyəti vəzifələrində xidmət etmiş kadr zabitlər və təqvim hesabı ilə azı 5 il gizir (miçman) heyəti vəzifələrində xidmət etmiş gizirlər (miçmanlar) istisna olmaqla) hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində onların hazırlanmasına çəkilmiş xərclərin əvəzini ödəməlidirlər. Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində kursantların hazırlanmasına çəkilmiş xərclərin hesablanması, əvəzinin ödənilməsi qaydası və müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

42-1.2. Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində kursantların hazırlanmasına çəkilmiş xərclərin əvəzini ödəmək öhdəliyi bu Qanunun 42-1.1-ci maddəsində nəzərdə tutulmuş hallarda bağlaşmada nəzərdə tutulur.

42-1.3. Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində kursantların hazırlanmasına çəkilmiş xərclər bu Qanunun 42-1.1-ci maddəsinə əsasən müəyyən edilmiş qaydada nəzərdə tutulmuş müddətdə könüllü ödənilmədikdə məhkəmə qaydasında tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2024-cü il*

# "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 84-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 84-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 12-ci maddəsinin birinci hissəsinin "a" bəndinin dördüncü abzasının ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti həyata keçirirlər;

1.2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 42-1.1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 42-1.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində kursantların hazırlanmasına çəkilmiş xərclərin hesablanması, əvəzinin ödənilməsi qaydasını və müddətini altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 84-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 176 (Cild I); 2024, № 1, maddə 34, № 2, maddə 153; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 260 nömrəli və 29 dekabr tarixli 277 nömrəli fərmanları) 2-ci hissəsinin yeddinci-iyirmi altıncı abzasları müvafiq olaraq səkkizinci-iyirmi yeddinci abzaslar hesab olunsun və həmin hissəyə aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"həmin Qanunun 12-ci maddəsinin birinci hissəsinin "a" bəndinin dördüncü abzasının ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti həyata keçirirlər;".

4. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82 (Cild I); 2024, № 4, maddələr 375, 397, № 5 (I kitab), maddə 529; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 260 nömrəli və 29 dekabr tarixli 277 nömrəli fərmanları) 5.2-ci bəndində ", 46.1.2-ci maddələrində" sözləri "maddəsində, 42-1.1-ci maddəsinin ikinci cümləsində, 46.1.2-ci maddəsində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

# Avstraliya İttifaqının General-Qubernatoru zati-aliləri xanım Samanta Mostinə

Hörmətli xanım General-Qubernator!

Avstraliya İttifaqının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, dövlətlərarası münasibətlərimizin və qarşılıqlı faydalı əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2025-ci il*

# M.Q.Musayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında sahibkarlığın inkişafı sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Məmməd Qurban oğlu Musayev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

# Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

# Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

# "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 fevral tarixli 1045 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 fevral tarixli 1045 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 177 (Cild I) 5-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

# "Azərbaycan Respublikasında iqtisadi siyasətin və iqtisadi islahatların yeni idarəetmə çərçivəsinin yaradılması və "Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 iyul tarixli 995 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 9 sentyabr tarixli 1151 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında iqtisadi siyasətin və iqtisadi islahatların yeni idarəetmə çərçivəsinin yaradılması və "Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 iyul tarixli 995 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 9 sentyabr tarixli 1151 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1141 (Cild I); 2024, № 1, maddə 32) 2-ci hissəsinə "Azərbaycan Respublikası Prezidentinin köməkçisi - İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri" abzasından əvvəl aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Samir Şərifov - Azərbaycan Respublikası Baş nazirinin müavini".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

# "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 14-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 836 (Cild I); 2024, № 4, maddə 361, № 5 (I kitab), maddə 484) aşağıdakı dəyişikliklər edilsin:

1. 5.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"5.2. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayətə bu Qanunun 9-cu maddəsində müəyyən edilmiş qaydada baxılır.".

2. 6.2-ci maddədə "5-ci maddəsində müəyyən edilmiş müvafiq icra hakimiyyəti orqanlarına" sözləri "9.1-ci maddəsində müəyyən edilmiş müvafiq icra hakimiyyəti orqanına" sözləri ilə əvəz edilsin.

3. 9-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 9. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətə baxılma qaydası**

9.1. Məişət zorakılığı ilə bağlı şikayətə zərər çəkmiş şəxsin yaşadığı (olduğu) yerin müvafiq icra hakimiyyəti orqanı tərəfindən, bu Qanunun 6.3-cü və 8-ci maddələrinin tələbləri nəzərə alınmaqla 5 (beş) gün müddətində, bu Qanunun 11.2-ci maddəsində nəzərdə tutulan halda müraciət edilən vaxtdan 24 saat keçənədək baxılır.

9.2. Araşdırma aparmaq üçün əlavə materiallar tələb etmək və ya əlavə halları öyrənmək zərurəti yarandıqda, şikayətə baxılma müddəti 5 (beş) gündən çox olmayaraq (bu Qanunun 11.2-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla) uzadıla bilər.

9.3. Zərər çəkmiş şəxsin tələbi ilə dinləmədə vəkil və psixoloqun iştirakı təmin edilir. Zərər çəkmiş şəxs Azərbaycan dilini bilmədikdə, tərcüməçi xidmətlərindən istifadə etmək hüququ təmin olunur.

9.4. Məişət zorakılığından zərər çəkmiş şəxslərdən biri 16 yaşınadək və ya əlilliyi olan şəxs olduqda, aparılan araşdırma və dinləmələrdə pedaqoqun və ya psixoloqun iştirakı təmin olunur.

9.5. Məişət zorakılığı barədə şikayətə baxılmasının nəticələrindən asılı olaraq aşağıdakı qərarlardan biri və ya bir neçəsi qəbul olunur:

9.5.1. məişət zorakılığı törətmiş şəxsə qanunla müəyyən olunmuş məsuliyyət izah edilməklə, məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməsi;

9.5.2. məişət zorakılığı törətmiş şəxsin qanunla müəyyən olunmuş qaydada valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı məhkəməyə müraciət edilməsi;

9.5.3. əməllərində cinayət və ya inzibati xəta tərkibi olan şəxsin qanunla müəyyən olunmuş qaydada cinayət və ya inzibati məsuliyyətə cəlb edilməsi barədə səlahiyyətli dövlət orqanlarına müraciət edilməsi;

9.5.4. zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi ilə əlaqədar məhkəməyə müraciət edilməsi;

9.5.5. zərər çəkmiş şəxsin yardım mərkəzində müvəqqəti sığınacaqla təmin edilməsi.".

4. 11.2-ci maddənin ikinci cümləsi üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Xəbərdarlığın icrasına bu barədə qərar qəbul etmiş orqan tərəfindən zorakılığı törətmiş şəxsin hərəkətlərinə diqqət yetirilməsi, habelə onunla və zərər çəkmiş şəxslə söhbətlərin aparılması formasında nəzarət həyata keçirilir.".

5. 17.3-cü maddənin ikinci cümləsində "qanunvericiliklə" sözü "qanunla" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2024-cü il*

# "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 83-VIIQD nömrəli Qanununun tətbiqi və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 1 oktyabr tarixli 331 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 83-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci və 9.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 83-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 1 oktyabr tarixli 331 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 843 (Cild I); 2024, № 4, maddə 380) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.2-ci bənddən "5.2-ci maddəsinin ikinci cümləsində," sözləri çıxarılsın;

3.2. 2.6-cı bənddə "5.2-ci maddəsinin birinci cümləsində və 6.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının, 7.0.8-ci" sözləri "6.2-ci, 7.0.8-ci, 9.1-ci" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2025-ci il*

# Sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlərdə təqsirləndirilən erməniəsilli şəxslərin məhkəməsi davam etdirilib













**Ermənistan vətəndaşı olan, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və digər maddələrlə təqsirləndirilən Ruben Vardanyanın məhkəmə prosesinin hazırlıq iclası yanvarın 27-də davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxs rus dilində tərcüməçi, habelə müdafiə üçün vəkillərlə təmin olunub.

Məhkəmə hazırlıq iclasında zərərçəkmişlərin, onların hüquqi varislərinin bir hissəsi və onların müdafiəçiləri də iştirak ediblər.

Hazırlıq iclasında Ruben Vardanyanın və onun vəkilinin vəsatətlərinə baxılıb.

Təqsirləndirilən şəxs vəsatətlərini sadalayarkən cinayət işinin materialları ilə ətraflı tanış ola bilmədiyini və müdafiəsinə səmərəli hazırlaşmaq üçün əlavə 30 iş günü vaxt verilməsini məhkəmədən xahiş edib.

"Özümü hüquqi baxımdan müdafiə etməyə hazır olmaq istəyirəm", - deyə o əlavə edib.

R.Vardanyanın vəkili Avraam Berman iş materialları ilə tanış olmaq üçün yenidən əlavə vaxt verilməsini, habelə təqsirləndirilən şəxsin öz müdafiəsini səmərəli təşkil etməsi üçün hüquq ədəbiyyatlarına çıxış imkanı yaradılmasını xahiş edib.

Bundan sonra ittiham tərəfi vəsatətlərə münasibət bildirib.

Dövlət ittihamını müdafiə edən prokuror prosessual qənaət prinsipindən çıxış edərək, təqsirləndirilən şəxsə bu günə qədər iş materialları ilə tanış olmaq üçün kifayət qədər vaxt verildiyini, o cümlədən ötən prosesdə təqsirləndirilən şəxsin vəsatəti əsasında istintaq materialları ilə tanış olmaq üçün əlavə 10 gün vaxt verildiyini xatırladıb və məhkəmə hazırlıq iclasının müddətinin lüzumsuz uzadılmasına qarşı çıxıb.

Daha sonra dövlət ittihamını müdafiə edən digər prokuror çıxış edərək vurğulayıb ki, ibtidai istintaq zamanı təqsirləndirilən şəxsin müdafiə hüququ pozulmayıb, ittiham aktı Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinin tələblərinə uyğun tərtib edilib, məhkəmə aidiyyəti qaydalarına riayət olunub.

Nəticədə prokuror təqsirləndirilən şəxsin ittiham olunduğu maddələr üzrə məhkəməyə verilməsini və məhkəmə baxışının təyin edilməsini, habelə təqsirləndirilən şəxsin barəsində seçilmiş həbs qətimkan tədbirinin dəyişdirilmədən saxlanılmasını təklif edib.

R.Vardanyanın vəkili isə cinayət işinin hazırkı mərhələdə baxışa verilməsinə etiraz edib, əlavə vaxt verilməsi üçün hazırlıq iclasının təxirə salınmasını xahiş edib.



Sonra məhkəmə vəsatətlərə münasibət bildirmək üçün müşavirəyə gedib. Müşavirədən sonra qərar elan olunub.

Qərara əsasən, R.Vardanyanın cinayət işi materialları ilə tanış olmaq üçün əlavə vaxt verilməsi ilə bağlı və digər vəsatətləri təmin edilməyib.

Hakim qeyd edib ki, ibtidai istintaq yekunlaşdıqdan sonra təqsirləndirilən şəxsə iş materialları ilə tanış olmaq üçün vaxt verilib, daha sonra isə məhkəmə hazırlıq iclasının ilkin mərhələsində təqsirləndirilən şəxsə iş materialları ilə daha ətraflı tanış olmaq üçün əlavə vaxt verilib. Məhkəmə həmin müddətləri yetərli hesab etdiyindən vəsatəti təmin etməyib. Habelə təqsirləndirilən şəxs barəsində seçilmiş qətimkan tədbirini dəyişmədən saxlayıb.

Cinayət işi məhkəmə baxışına verilib və məhkəmənin növbəti iclası fevralın 6-na təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, aparma), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə) əməllərinin törədilməsində təqsirləndirilib.

Həmçinin o, həmin Məcəllənin 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma), 318-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələrində nəzərdə tutulan əməllərin törədilməsində ittiham olunur.

* * *

Daha sonra Ermənistan dövləti və onun silahlı qüvvələri, o cümlədən Ermənistan tərəfindən vaxtilə Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycana və Azərbaycan xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibə aparma, soyqırımı, əhalini məcburi köçürmə, təqib, işgəncə, hərbi soyğunçuluq və digər qanunsuz əməllərə dair cinayət işi üzrə açıq məhkəmə hazırlıq iclası davam etdirilib.

Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslər erməni dilində tərcüməçilərlə, habelə müdafiə üçün vəkillərlə təmin olunub.

Prosesdə zərərçəkmiş qismində tanınmış 531 mindən artıq şəxsin bir qismi, habelə onların nümayəndələri iştirak ediblər.

Əvvəlcə təqsirləndirilən şəxslərin - Bako Saakyanın, Erik Qazaryanın, Araik Harutyunyanın, Melikset Paşayanın, Arkadi Qukasyanın, Levon Mnatsakanyanın, Vasili Beglaryanın, Davit Allahverdiyanın vəkilləri çıxış edərək yeni vəsatətlər təqdim ediblər.

Müdafiəçilər verilmiş ittihamların bir qisminin təqsirləndirilən şəxslərə aid olmadığını bildirərək, cinayət təqibinə həmin hissələrdə bəraətverici əsaslarla xitam verilməsini məhkəmədən xahiş ediblər.

Təqsirləndirilən şəxslər vəkillərinin vəsatətlərini müdafiə ediblər.

A.Harutyunyanın vəkili vəsatət verərək, sübut siyahısına əlavə olunması üçün məhkəməyə sənəd təqdim edib.

İttiham tərəfi həmin sənədin sübutlar siyahısına əlavə edilməsinə etiraz etməyib, lakin qeyd olunan sənədin mötəbərliyinin məhkəmə istintaqının gedişində tədqiq olunacağını bildirib.

Dövlət ittihamını müdafiə edən prokurorlar təqsirləndirilən şəxslər barəsində cinayət təqibinə hissəvi xitam verilməsinə dair vəsatətlərin təmin olunmamasını xahiş edib.

Prosesdə zərərçəkmiş şəxslərin nümayəndələri də çıxış edərək, ittiham tərəfinin mövqeyi ilə razılaşdıqlarını bildiriblər.

Prosesdə Azərbaycan dövləti adından zərərçəkmiş qismində iştirak edən Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov çıxış edərək, vəsatətlərin təmin olunmamasını xahiş edib.

Sonra prokuror çıxış edərək cinayət işi üzrə məhkəmə aidiyyəti qaydalarına riayət olunduğunu, prosessual sənədlərin tərtibatında səhvə yol verilmədiyini, təqsirləndirilən şəxslərin müdafiə hüquqlarının təmin edildiyini, onların barəsində seçilmiş qətimkan tədbirinin dəyişdirilməsi üçün əsasların olmadığını bildirib və məhkəmə baxışının təyin olunmasını təklif edib.

Məhkəmə verilən vəsatətlərə münasibət bildirmək üçün müşavirəyə gedib.

Müşavirədən qayıdan məhkəmə tərkibi müdafiə tərəfinin ötən məhkəmə prosesində və hazırkı iclasda qaldırdığı vəsatətlər barədə qərarı elan edib.

Qərara əsasən, müdafiə tərəfinin bəzi təqsirləndirilən şəxslərin ev dustaqlığına buraxılması və cinayət işinə bəzi epizodlarda hissəvi xitam verilməsi ilə bağlı vəsatətləri təmin etməyib.

A.Harutyunyanın təqdim etdiyi sənəd iş materiallarına əlavə olunub.

Həmçinin məhkəmənin qərarı ilə cinayət işi məhkəmə baxışına verilib, təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbiri dəyişdirilmədən qüvvədə saxlanılıb.

Məhkəmənin baxış iclası fevralın 6-na təyin olunub.

Xatırladaq ki, Ermənistan Respublikası və onun silahlı qüvvələri, o cümlədən Ermənistanın yaratdığı qanunsuz "Dağlıq Qarabağ respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər - Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Saakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beglaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiriyə qarşı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

## Ötən ilin uğurlu yekunları



# Dövlət gənclərin dayağıdır

## İnsan kapitalına, gənc nəslin mənəvi və fiziki sağlamlığına xidmət edən siyasət ötən il də davam etmişdir

**Ölkəmiz üçün çoxsaylı nailiyyətlərlə başa çatan 2024-cü il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə gənc nəslin intellektual, mənəvi və fiziki tərbiyəsi məqsədinə yönəlmiş siyasətin uğurları ilə də zəngin olmuşdur. Ötən il Azərbaycanda təhsil, gənclik və idmanla bağlı görülən işlər ölkənin sosial-iqtisadi inkişafına, insan kapitalının artırılmasına, beynəlxalq əlaqələrimizin daha da möhkəmləndirilməsinə xidmət etmişdir. Dövlət başçısının il ərzində imzaladığı fərman və sərəncamlar həyatımızın bütün sahələri kimi, bu prioritet istiqamətlərə də xüsusi diqqətin ayrıldığını əks etdirmişdir.**

### Dayanıqlı inkişafda insan kapitalı

Hazırda dayanıqlı inkişafda insan kapitalı çox mühüm rol oynayır. Bu sahəyə diqqət cəmiyyətin balanslı və ardıcıl tərəqqisini təmin edir. Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin nailiyyətləri sırasında bu gün tarixinin ən qüdrətli mərhələsinə gəlib çatmış Azərbaycanda təbii resursların insan kapitalına çevrilməsi dövlətin ən mühüm hədəflərindən elan edilib. Bu da respublikamızın strateji planda gələcəyə yüksək həssaslıqla hazırlığından irəli gəlir.

Bu gün Azərbaycan dövləti insan kapitalının inkişafı istiqamətində ardıcıl strateji addımlar atır. Qarşıya qoyulan vəzifələrə uyğun olaraq, bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirilir. Ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasından, illərlə inkişafımıza mane olan problemlərin həllindən sonra Azərbaycanın daxil olduğu yeni strateji dövrdə bu məsələ böyük əhəmiyyət daşıyır. Bu mərhələdə əsas hədəf rifah dövləti kimi həyat standartlarını daha da artırmaq, respublikanı bütün istiqamətlərdə dünyanın ən inkişaf etmiş ölkələrindən biri statusuna yüksəltməkdir. İnsan kapitalı bu hədəfin reallaşdırılmasında, ölkəmizin iqtisadi inkişafı və rəqabət qabiliyyətinin artırılmasında həyati əhəmiyyət kəsb etməkdədir. Ona görə də Azərbaycan dövləti insan inkişafına yönəlmiş tədbirləri getdikcə genişləndirir.

Bu tədbirlərin mühüm bir qismi təhsil sahəsinə aiddir. İnsan kapitalının inkişafı üçün təhsil sisteminin təkmilləşdirilməsi, ibtidai, orta və ali təhsilin hər kəsə əlçatan olması son dərəcə vacibdir. Onun inkişafından ötrü ölkə daxilində bütün sosial qrupların keyfiyyətli təhsilə bərabər çıxışını təmin etmək lazımdır. Təhsil infrastrukturunun yaxşılaşdırılması, o cümlədən məktəblərin, universitetlərin və peşə təhsili müəssisələrinin fiziki infrastrukturu texnoloji təchizatı və müasir təlim metodları ilə təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Həmçinin peşə və texniki təhsil sisteminin gücləndirilməsi gənclərin əmək bazarının tələblərinə uyğun hazırlanması baxımından çox mühümdür.

Azərbaycan dövləti insan kapitalının inkişafı məqsədindən irəli gələrək elmi tədqiqatları dəstəkləyir, texnoloji parkları və startap ekosistemini gücləndirir. Müasir texnoparklar və inkubasiya mərkəzləri ölkəmizdə yeni texnoloji sahibkarlığın inkişafına kömək edir. Dövlət startaplara və innovativ bizneslərə maliyyə və inzibati dəstək verir.

### Müasir çağırışlara uyğunlaşdırılan Azərbaycan təhsili

2024-cü ildə təhsil sahəsində atılan addımlar cəmiyyətimizin intellektual inkişafına, insan kapitalının yüksəlişinə böyük təkan vermişdir. Bu siyasətin prioritet istiqamətləri təhsilin keyfiyyətinin artırılması, təhsilalanlara dəstək mexanizmlərinin genişləndirilməsi, innovativ proqramların yaradılması və beynəlxalq əməkdaşlıq məsələləri ilə bağlı olmuşdur.

2024-2025-ci tədris ilində yüksək təhsil nailiyyətlərinə görə 102 tələbənin Azərbaycan Respublikası Prezidentinin təqaüdü ilə təltif edilməsi ölkəmizdə istedadlı gənclərə verilən dəyərin bariz nümunəsidir. Bu təqaüd proqramı tələbələrin motivasiyasını artırmaqla yanaşı, elmi araşdırmaların da təşviqinə böyük kömək göstərir. Azərbaycan gənclərinin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almalarına kömək göstərmək üçün dövlət başçısı "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli sərəncamının müddətini 2 il artıraraq 2028-ci ilə qədər uzatmışdır. Eyni zamanda sərəncamdakı digər müvafiq dəyişikliklərlə bu proqramın daha da effektivliyinə, ən çox istedadlı gəncimizin bu imkandan faydalanmasına, eyni zamanda ölkəmizin də xarici universitetlərdə yeni bilik və bacarıqlara yiyələnən gənclərin potensialından daha səmərəli şəkildə faydalana bilməsinə şərait yaratmışdır.

Prezidentin "Ali təhsildə yeni məzmunlu təhsil proqramlarının əhatə dairəsinin genişləndirilməsi və maliyyələşdirilməsi barədə" 15 noyabr 2024-cü il tarixli sərəncamı da ötən il bu istiqamətdə atılmış ən mühüm addımlardandır. Belə ki, bu sərəncamla ali təhsildə yeni məzmunlu proqramların əhatə dairəsinin genişləndirilməsi təhsilin əsas prioriteti kimi müəyyənləşmişdir. Bu proqramlar müasir dövrümüzün ehtiyaclarına cavab verən, praktik bilik və bacarıqların öyrədilməsinə yönələn tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Belə proqramların maliyyələşdirilməsi ölkəmizin təhsil sisteminin davamlı inkişafını təmin edəcəkdir.

Bu baxımdan ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə yaradılmış və 2014-cü ildən fəaliyyətə başlayan SABAH proqramı çərçivəsində ali təhsil sistemində yeni məzmunlu proqramların tətbiqi təcrübəsi özünü daha çox doğruldur. Proqram çərçivəsində tədrisin mütərəqqi forma və metodlarının tətbiqi, ixtisas üzrə kompetensiyalara tam yiyələnmənin təmin olunması, dərinləşdirilmiş xarici dil tədrisi, tələbələrə əlavə təqaüd verilməsi, onların xarici mübadilə proqramlarında iştirakı imkanlarının artırılması, tələbəyönümlü tədrisin və tədrisdənkənar fəaliyyətin təşkili kimi üstünlüklər gənclərin ali təhsilin yeni məzmunlu təhsil proqramlarına marağını daha da artırmışdır.

Sərəncamda ali təhsil sistemində kəmiyyət əsaslı maliyyələşdirmədən keyfiyyət əsaslı maliyyələşdirməyə keçidin təmin olunması və maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi üçün SABAH proqramının əhatə dairəsi 2025-2026-cı tədris ilindən başlayaraq mərhələlərlə 2028-ci ilədək genişləndirilmişdir. Bu proqram ilə təhsil alan tələbələrin təhsil xərclərinin maliyyələşdirilməsi müvafiq illərin dövlət büdcəsində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi üçün nəzərdə tutulmuş məqsədli vəsaitlər hesabına təmin edəcəkdir.

2024-cü il ərzində ali təhsil sistemi yeni yanaşmalarla daha da təkmilləşdirilmişdir. Təhsil infrastrukturunun möhkəmləndirilməsi, informasiya texnologiyalarının təhsilə inteqrasiyası, tədris resurslarının əlçatanlığı bu siyasətin əsas məqsədlərindən olmuşdur. Ötən il Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi Müşahidə Şurasının tərkibi yenidən təsdiqlənmiş, Türkiyə-Azərbaycan Universitetinin fəaliyyəti ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında müvafiq sərəncam imzalanmışdır. Ölkəmizin təhsil sahəsində beynəlxalq əlaqələrinin möhkəmləndirilməsi, məlumat və resurs mübadiləsini genişləndirməklə Azərbaycan təhsilinin qlobal məkana inteqrasiyasının dərinləşdirilməsi istiqamətində digər ardıcıl işlər də görülmüşdür.

Ötən il "Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı tədbirlər haqqında" çox əhəmiyyətli bir sərəncam da imzalanmışdır. Mahiyyət etibarilə bu sərəncam cəzaçəkmə müəssisəsindəki məhkumların azadlığa çıxandan sonra cəmiyyətə sosial adaptasiyasına, onların məşğulluq problemlərinin qısa zamanda həllinə, xüsusilə bu peşə məktəblərində yeni bilik və bacarıqlara yiyələnən gənc məhkumların həyatda öz yerlərini tapmalarına kömək göstərəcək.

### Sağlam gənclik, sağlam gələcək

2024-cü ildə həyata keçirilən gənclər siyasəti də bu nəslin ictimai həyata daha fəal inteqrasiyası, onlara yeni imkanların yaradılması və yaradıcı potensialının kəşf edilərək dəstəklənməsi əsasında qurulmuşdur.

Prezident İlham Əliyevin 1 fevral 2024-cü il tarixli sərəncamı ilə 10 gənc Azərbaycan Respublikası Prezidentinin mükafatlarına layiq görülmüşdür. Bu mükafatlar onların elm, incəsənət və digər sahələrdəki nailiyyətlərini tanımaq, böyüməkdə olan nəslə yeni imkanlar yaratmaq məqsədi daşıyır. Belə addımlar gəncləri yaradıcılıq sahəsində daha aktiv fəaliyyətə ruhlandırır.

Məlum olduğu kimi, Prezidentin 17 aprel 2024-cü il tarixli sərəncamı ilə Şuşa şəhəri "İslam Əməkdaşlıq Təşkilatının Gənclər Paytaxtı" elan edilmişdir. Bu qərar Zəfər rəmzimiz olan Şuşanın tarixi-mədəni əhəmiyyətini beynəlxalq gənclər platformasında tanıtmaqla yanaşı, gənclərin müdafiəsi və sosial iştiraklığına imkan yaratmışdır.

Ötən il gənclərlə bağlı imzalanan ən mühüm sənədlərdən biri də 2025-ci ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər haqqındadır. "Yüksəliş" müsabiqəsi, ölkədə gənc liderlərin aşkara çıxarılması və onların potensialının inkişafı məqsədi daşıyan mühüm layihələrdəndir. 2019-cu ildən keçirilən və indiyə qədər on minlərlə iştirakçının qatıldığı müsabiqə vasitəsilə müxtəlif sahələrdə liderlik qabiliyyətinə malik gənclər seçilir və onların inkişafı üçün xüsusi proqramlar həyata keçirilir. Eyni zamanda gənclərə öz layihələrini reallaşdırmaq, mentorlarla işləmək və peşəkar şəbəkələr qurmaq üçün şərait yaradılır.

"Yüksəliş" müsabiqəsi Azərbaycanın gələcək liderlərini hazırlamaq və onların dövlət idarəetməsində, biznesdə və digər sahələrdə fəal iştirakını təmin etmək üçün mühüm platformadır. Bu, həmçinin ölkənin insan resurslarının inkişafına və rəqabətqabiliyyətli mühitin yaradılmasına xidmət edir.

Gənclərin sosial həyatda iştirakını, fəallığını artırmaq üçün də bir sıra tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər vasitəsilə onlara liderlik keyfiyyətlərini inkişaf etdirmək, yaradıcı və innovativ ideyaları təşviq etmək üçün şərait yaradılmışdır. Ümumiyyətlə, 2024-cü ildə də ölkəmizin gənclər siyasəti bu nəslin həyata baxışını, cəmiyyətdəki ictimai rolunu və sosial məsuliyyətini genişləndirməyə istiqamətlənmişdir. Bütün bunlar isə ölkənin gələcək dayanıqlı inkişafında son dərəcə vacibdir.

### İdman ölkəsi

Gənclər siyasətini idmandan kənarda təsəvvür etmək mümkün deyil. Çünki idman gənclərin fiziki və mənəvi sağlamlığına xidmət edir. 2024-cü ildə idman sahəsində reallaşdırılan siyasət ölkənin beynəlxalq idman müstəvisində onların rolunu gücləndirmiş və nailiyyətlərinin tanınması ilə yadda qalmışdır. Bu siyasət həm idman infrastrukturunun inkişafını, həm də idmançılara verilən dəstəyi əhatə edir.

Azərbaycanın idman sahəsindəki uğurları 13 avqust 2024 və 23 dekabr 2024-cü il tarixli sərəncamlarla bir daha qeyd olunmuşdur. Həmin sərəncamlarla ölkəmizi "Paris-2024" Yay Olimpiya və Paralimpiya Oyunlarında təmsil edən komandalarımızın üzvləri müxtəlif orden və medallarla, Prezident təqaüdləri ilə təltif edilmiş, o cümlədən 4 nəfər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomuna", 10 nəfər "Tərəqqi" medalına, 2 nəfər "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adına layiq görülmüş, 3 nəfərə Azərbaycan Prezidentinin fərdi təqaüdü verilmişdir.

2025-ci ildə üçüncü MDB Oyunlarının Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında 10 iyul 2024-cü il tarixli sərəncam da ölkəmizin beynəlxalq idman tədbirlərindəki aparıcı rolunu göstərir. Bu addım bütün dünyada idman ölkəsi kimi tanınmış, son onilliklərdə müxtəlif mötəbər yarışlara evsahibliyi edən Azərbaycanın idman infrastrukturunun beynəlxalq standartlara uyğun inkişafına xidmət edir. Yeni idman obyektlərinin inşası və mövcud qurğuların modernləşdirilməsi isə ölkənin idman potensialını artırmaq məqsədi daşıyır. Bir sözlə, 2024-cü ildə həyata keçirilən idman siyasəti ölkənin beynəlxalq idman ictimaiyyəti arasındakı mövqeyini gücləndirmişdir.

*İradə ƏLİYEVA, "Azərbaycan"*

## Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin yaz sessiyasında ilk iclası keçirilib



**Yanvarın 27-də Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin 2025-ci ilin yaz sessiyasında ilk iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Fazil Mustafa gündəliyin birinci məsələsini - 2024-cü ilin payız sessiyası dövründə İctimai birliklər və dini qurumlar komitəsində görülən işlər barədə hesabatını təqdim edib. Bildirilib ki, komitənin ötən sessiya ərzində 5 iclası keçirilib və həmin iclaslarda 4 məsələyə baxılıb.

2024-cü ilin payız sessiyası dövründə vətəndaşlardan, idarə və təşkilatlardan daxil olmuş ərizə və məktublara, digər müxtəlif xarakterli sənədlərə, elektron poçt vasitəsilə daxil olmuş məktublara komitədə baxılıb və tədbir görülməsi üçün aidiyyəti təşkilatlara göndərilib. Ərizələrin əksəriyyəti ilə bağlı müvafiq icra strukturları və təşkilatlarla telefon əlaqəsi saxlanılıb və məsələlərin qanun çərçivəsində həllinə nail olunub.

Payız sessiyası dövründə komitə sədri və üzvləri həm xaricdə, həm də ölkə daxilində keçirilmiş tədbirlərdə, görüşlərdə, o cümlədən COP29 çərçivəsində keçirilən tədbirlərdə fəal iştirak ediblər, sosial şəbəkələrdə aktiv olublar.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin 2025-ci ilin yaz sessiyası üçün iş planının layihəsi barədə isə Fazil Mustafa bildirib ki, qarşıdakı sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələrinin müzakirəsi, bir sıra qanunlara dəyişikliklər edilməsi, Qərbi Azərbaycana qayıdış mövzusunun beynəlxalq platformalara daşınması məsələsinə, siyasi partiyalara, dini abidələrə və digər mövzulara dair ictimai müzakirələrin keçirilməsi və müvafiq qurumların nümayəndələri ilə görüşlər nəzərdə tutulub.

Müzakirələr zamanı komitə sədrinin müavini Sahib Alıyev, komitə üzvləri Ceyhun Məmmədov, Cavanşir Paşazadə, Tənzilə Rüstəmxanlı, Azər Allahverənov, Səbinə Salmanova, Elşad Musayev və Azay Quliyev gündəlikdəki məsələlər, o cümlədən cari məsələlər barədə çıxış ediblər, qeyd və təklifləri bildiriblər.

İclasda komitənin 2024-cü ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı qənaətbəxş hesab olunub, 2025-ci ilin yaz sessiyası üçün iş planı təsdiqlənib.

*"Azərbaycan"*

## Toponimiya komissiyasının iclası



**Yanvarın 27-də Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının yeni tərkibdə ilk iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, ilk iclasa sədrlik edən parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid bildirib ki, "Azərbaycan Respublikasının Milli Məclisinin yanında Toponimiya Komissiyası haqqında" Əsasnaməyə görə, Toponimiya komissiyasının ilk iclasında təşkilatı məsələlərə baxılır. Müvafiq olaraq bugünkü iclasın gündəliyinə də komissiyanın sədri, sədr müavini və katibin seçilməsi məsələsi daxil edilib.

İclasda komissiyanın sədri vəzifəsinə AMEA-nın prezidenti İsa Həbibbəylinin, komissiyanın sədr müavini vəzifəsinə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyevin, komissiyanın katibi vəzifəsinə isə Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati ərazi və bələdiyyə məsələləri üzrə qanunvericilik sektorunun müdiri Cavid İskəndərovun namizədlikləri irəli sürülüb.

İclasda komissiya üzvləri - deputatlar Musa Quliyev, Anar İsgəndərov, Hikmət Məmmədov, Elnarə Akimova və Əziz Ələkbərov, AMEA-nın prezidenti İsa Həbibbəyli, akademik Nizami Cəfərov, Xalq şairi Sabir Rüstəmxanlı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, professor Mahirə Hüseynova, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Toponimika şöbəsinin müdiri Elçin İsmayılov çıxış ediblər. Çıxışlarda hər üç şəxsin namizədliyi dəstəklənib, Azərbaycan toponimiyasının bəzi aktual məsələləri ilə bağlı fikirlər səsləndirilib.

Təklif səsə qoyularaq yekdilliklə qəbul edilib.

İclasda Toponimiya komissiyasının üzvü akademik Möhsün Nağısoylu və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

## Bakı Gənclər Mərkəzinin 5 illik yubileyi qeyd edilib

**Mərkəzdən AZƏRTAC-a bildirilib ki, tədbir şəhidlərimizin əziz xatirəsinə ehtiram əlaməti olaraq birdəqiqəlik sükutla və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.**

Bakı Gənclər Mərkəzinin direktoru Nərgiz Babayeva açılış nitqi ilə çıxış edərək mərkəzin 5 il ərzində həyata keçirdiyi layihələr, qazandığı uğurlar və gələcək hədəflər barədə geniş məlumat verib. Bununla yanaşı, Bakı Gənclər Mərkəzinin fəaliyyətini əks etdirən "Biz gəncliyin mənbəyiyik" jurnalı təqdim olunub.

Yubiley tədbiri gənclərin böyük həvəslə hazırladığı musiqi və rəqs səhnələri ilə yadda qalıb. Həmçinin Bakı Gənclər Mərkəzinin əməkdaşlarının ifasında səsləndirilən "Yubiley sədası" xüsusi maraq doğurub.




Tədbirdə Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi gömrük xidməti general-mayoru Qulu Novruzov tərəfindən mərkəzə xatirə hədiyyəsi təqdim olunub. Azərbaycanın incəsənət ustaları ifaları ilə tədbirə rəng qatıblar.

# Yüksələn qlobal nüfuz, artan iqtisadi güc

## İlham Əliyevin Davosda qarşı tərəflərin müraciətləri əsasında keçirdiyi görüşlər Azərbaycana siyasi-iqtisadi dividendlər gətirəcək

*Əvvəli 1-ci səh.*

İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurları, strateji layihələri və əməkdaşlıq perspektivləri forum çərçivəsində dünyaya çatdırılır. Dövlətimizin başçısı öz iqtisadi, siyasi və sosial strategiyalarını geniş formatda təqdim edir. Bir mərama da diqqət yetirmək lazımdır ki, İlham Əliyev hər il forumda iştirakı zamanı ayrı-ayrı ölkələrin liderləri ilə yanaşı, dünyanın nüfuzlu şirkətlərinin rəhbərləri, tanınmış iş adamları ilə çoxsaylı görüşlər keçirir, beynəlxalq miqyaslı media qurumlarına, jurnalistlərə müsahibələr verir. Xüsusilə vurğulanmalıdır ki, bu görüşlərin hər biri qarşı tərəfin müraciətləri əsasında keçirilir.

Prezident habelə ölkəmizin təşəbbüsü ilə həyata keçirilən mühüm regional nəqliyyat və enerji layihələrinin önəmini dünya ictimaiyyətinin diqqətinə çatdırır.

Budəfəki forumda Azərbaycanın iştirakı ölkəmizin iqtisadiyyatının qlobal çağırışlara uyğunlaşdırılması və investisiyaların cəlb edilməsi baxımından çox əhəmiyyətli oldu.

Prezident İlham Əliyev forumda iştirakın əhəmiyyətini iki nöqteyi-nəzərdən yüksək




dəyərləndirir. İlk olaraq Azərbaycan reallıqlarını beynəlxalq ictimaiyyətə təqdim edir, ikincisi də, bu mötəbər toplantıya qatılmaq dünyada baş verən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etmək imkanından yararlanmaqla ölkəmizdə islahatları davamlı şəkildə aparmağa, ölkəyə xarici investisiyaları cəlb etməyə imkan verir.

Ölkəmizin rəhbərinin Davos Forumu iştirakçılarının özlərinin arzusu, təşəbbüsü ilə keçirilmiş çoxsaylı görüşlərində tamamilə haqlı olaraq Azərbaycanı strateji nəqliyyat qovşağı və enerji sektorunda əsas iştirakçı kimi dəyərləndirməsi böyük marağa səbəb olub. Ölkə iqtisadiyyatının, infrastrukturunun və "yaşıl iqtisadiyyat"ın əhəmiyyətli inkişafında xarici investisiyaların cəlb olunması ilə bərabər bu uğurun qazanılmasında qarşılıqlı fayda gətirəcək əməkdaşlığın da önəmli rol oynaması vurğulanıb. Digər bir mühüm məqam isə dünyanı lərzəyə salan ekoloji kataklizmlərin gücləndiyi bir zamanda ölkəmizdə ən mühüm prioritetlərdən biri kimi Prezident İlham Əliyev tərəfindən "yaşıl iqtisadiyyat"a verilən mühüm önəm və COP29-un çox uğurla keçirilməsinin mötəbər xarici iştirakçılar tərəfindən yüksək dəyərləndirilməsidir.

Bir sözlə, cənab İlham Əliyevin bu il Davosda keçirdiyi çoxsaylı və ölkəmizin gələcəyi üçün çox mühüm əhəmiyyət kəsb edən görüşlərdə Azərbaycanın "yaşıl enerji", tranzit potensialı və texnoloji innovasiyalar sahələrində böyük perspektivlərə malik olması iştirakçıların diqqətinə çatdırılıb.

Qarabağ və Şərqi Zəngəzurun iqtisadi və turizm imkanları, "yaşıl enerji" potensialının dünyaya tanıdılması ölkənin beynəlxalq arenada müsbət imicinin formalaşmasına xidmət edir.

Bir sözlə, sayca 55-ci olan Dünya İqtisadi Forumunda da bir daha təsdiq olundu ki, İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı da qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Məhz bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizliyə və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirir və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər.

Prezidentin Davosda qarşı tərəfin təşəbbüsü, xahişi ilə keçirdiyi görüşlər, apardığı müzakirələr yaxın zamanlarda Azərbaycana siyasi, iqtisadi dividendlər gətirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Həqiqəti pərdə arxasında uzun müddət gizlətmək mümkün deyil

## Bu, gec-tez açılıb özünü göstərir

**Rusiya dövləti ilə ermənilərin dostluq tarixi, qarşılıqlı münasibətlərinin davamlılığı iki yüz ildən çoxdur. Onların dostluğu bu gün də davam edir.**

Tarixi vərəqlədikcə öyrənirik ki, elə erməniləri Qafqaza ruslar gətiriblər. Qayğılarına qalıblar, burada yaşamaları üçün əlverişli şərait yaradıblar. Məqamı gələndə isə ermənilərdən öz məqsədləri üçün istifadə ediblər. Keçmiş ittifaq dağılandan sonra da Rusiya Ermənistanın əlini buraxmadı. Çünki bölgəni nəzarətdə saxlamaq üçün Ermənistan bu ölkəyə çox vacib idi. Buna görə də müxtəlif yollarla münasibətləri mülayimləşdirir, şirnikləşdirici addımlar atır, vədlər verirdi.

Ermənistanı həm siyasi, həm də iqtisadi cəhətdən idarə edən Rusiya onu ucuz qazla, pulsuz silahla təmin edir, bölgədə təsir imkanlarını artırmaq üçün ondan özünün forpostu kimi yararlanır. Rusiyanın zaman-zaman atdığı bu addımlar Ermənistan üçün də çox sərfəli idi. Ona görə də bu dövlətin bütün şərtlərini səssiz-səmirsiz qəbul edirdi. Çünki hər addımda Rusiyanı yanında görürdü. İşğalçı ölkə olan Ermənistan Birinci Qarabağ müharibəsində Moskvanın hərtərəfli kömək və yardımlarından yararlanmışdı. Amma İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun gücü, qüdrəti qarşısında dayana bilməyib məğlub olan Ermənistan ona kömək etmədiyinə görə Rusiyadan "inciyib" özünə daha yaxşı arxa tapmaq ümidi ilə üzünü Avropaya çevirdi. Əvvəlcə illərdən bəri üzv olduğu KTMT-dən çıxacağını bəyan etdi. Bu addımlarına görə də Rusiya ilə Ermənistanın münasibətləri soyudu. Rəsmi İrəvan başda Fransa olmaqla Qərb ölkələri ilə hərtərəfli əməkdaşlıq edəcəyini bildirdi. Özünü Rusiyaya arxa çevirən kimi göstərdi.

Son günlər yayılan məlumatlar isə bütün bu "küsmələrin", "incimələrin" gözdən pərdə asmaqdan başqa bir şey olmadığını göstərdi. Ötən həftə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Rusiyaya səfəri zamanı həmkarı ilə görüşüb. Görüş zamanı iki ölkə arasında maraq doğuran bir çox məsələlər ətrafında müzakirələr aparılıb. Rusiyanın XİN başçısı görüşlə bağlı jurnalistlərə açıqlamasında bildirib: "Münasibətlərimizə dair, demək olar ki, bütün məsələləri, regional və beynəlxalq müstəvidəki hadisələri açıq şəkildə müzakirə etdik". Sergey Lavrovun sözlərinə görə, Moskva İrəvanla bütün kompleks müqavilələrə, o cümlədən hərbi-siyasi sahədə razılaşmalara sadiqdir.

Rusiya XİN-in başçısının sözlərindən Ermənistanın bu ölkədən "incik" düşdüyü zərrə qədər də olsun duyulmur. Əksinə, verilən məlumatlar iki ölkə arasında əməkdaşlığın yüksək səviyyədə inkişaf etdiyini açıq şəkildə göstərir. Əgər belə səmimi münasibət, qarşılıqlı iqtisadi və siyasi əməkdaşlıq varsa, bunun harası gərginlik, inciklik oldu. Təbiidir ki, nəsə danışmaq, müəyyən siyasi bəyanatlar vermək, sonra da onu dəyişmək olar. Bu, başa düşüləndir, çünki siyasətdə belə hadisələr tez-tez baş verir. İqtisadi əlaqələr isə sözlərlə deyil, faktlarla ifadə olunur, necə deyərlər, rəqəmlər danışır. "Danışan" rəqəmlər isə Rusiya ilə Ermənistan arasında iqtisadi münasibətlərin getdikcə dərinləşdiyini, geninə-boluna şaxələndiyini göstərir. İki ölkə arasında iqtisadi münasibətlərin necə inkişaf etdiyini göstərən rəqəmlər Rusiya-Ermənistan iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyasının həmsədrləri - Rusiya baş nazirinin müavini Aleksey Overçukla Ermənistan baş nazirinin müavini Mher Qriqoryan arasında bir neçə gün əvvəl İrəvanda keçirilən görüşdə səsləndirilib. Məlum olub ki, 2024-cü ildə Rusiya ilə Ermənistanın ticarət dövriyyəsi 12 milyard dollar olub.

Faktlar bir daha təsdiq edir ki, Ermənistan və Rusiya arasındakı ticarət əlaqələri Ukraynada "xüsusi hərbi əməliyyatlar" başlayandan bəri nəzərəçarpacaq dərəcədə artıb. İki ölkə arasında ticarət dövriyyəsi bu günədək görünməyən həddə çatıb. Bir-biri ilə "küsülü", "incik"olan ölkələr belə yüksək səviyyədə iqtisadi, ticari əməkdaşlıq edə bilməz. Bütün bunlar oyundan və dünya ictimaiyyətinin gözündən pərdə asmaqdan başqa bir şey deyil. Bu oyunun da baş rollarını hər iki ölkənin rəhbərləri ifa edirlər.

Faktlar təsdiq edir ki, iki ölkə arasında iqtisadi münasibətlərdə yüksəliş məhz 2020-ci ildən sonra start götürüb. Arxada qalan bu illər ərzində Rusiya ilə Ermənistan arasında ticarət dövriyyəsi 4 dəfəyədək artıb. Əgər bu ölkələrin münasibətləri soyumuşdusa, gərginləşmişdisə iqtisadi əlaqələr getdikcə zəifləməliydi. Amma göründüyü kimi, əksinə, ötən illər ərzində iqtisadi əlaqələr daha da genişlənib. Deməli, hər iki tərəf gözdən pərdə asa-asa iqtisadi və ticari əlaqələrini daha da dərinləşdiriblər.

Qeyd edək ki, indiyə qədər Rusiya və Ermənistan arasında müxtəlif sahələrə dair razılıqlar əldə olunub, müvafiq sənədlər imzalanıb. Bura Ermənistanın hava hücumundan müdafiə sisteminin Rusiyanın nəzarəti altına keçməsi, regional əməkdaşlıq və iqtisadi əlaqələrə aid başqa istiqamətlər də daxildir. 2000-ci il sentyabrın 26-da Rusiya və Ermənistan rəhbərləri Moskvada "Rusiya Federasiyası və Ermənistan Respublikası arasında 21-ci əsrə yönəlmiş qarşılıqlı müttəfiqlik haqqında bəyannamə" imzalanıb. Həmin bəyannamənin 14-cü bəndində bildirilib: "Rusiya Federasiyası və Ermənistan Respublikası iki ölkə xalqlarının mənəvi, mədəni yaxınlığının qorunub-saxlanmasına hər cür töhfə verəcək, mədəniyyət, elm, səhiyyə, təhsil, informasiya sahələrində qarşılıqlı əlaqələri dərinləşdirəcəklər".

Rusiyanın Ermənistan əleyhinə söylədiyi iradlar, sadəcə olaraq, bəhanədir. Deyilənlər, danışılanlar ikitərəfli münasibətlərə xələl gətirəcək ciddi səbəb deyil. Əslində, Moskva ilə İrəvan arasında siyasi baxımdan böhrana çevriləcək heç bir qarşıdurma müşahidə olunmur. Neçə ildən bəridir boş-boşuna hay-küy salmağına baxmayaraq, Ermənistan hələ də KTMT-nin sıralarında qalır, Rusiyanın Gümrüdəki hərbi bazası da öz yerindədir. Unutmaq lazım deyil ki, Ermənistanın iqtisadiyyatı Rusiyadan asılıdır. Buna görə də İrəvan Moskvaya qarşı bəyanatlar verə bilər, amma konkret addım atmağa iradəsi çatmaz. Baş verənlər isə yaxşı düşünülmüş ikili oyundan başqa bir şey deyil. Amma bu oyunların arxasında gizlənib dünyanı uzun müddət aldatmaq da mümkün deyil.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Baş Prokurorluqda geniş kollegiya iclası keçirilib

**Yanvarın 27-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda 2024-cü ildə prokurorluq orqanları tərəfindən bütün fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdən öncə Baş Prokurorluğun kollegiya üzvləri tərəfindən Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub, unudulmaz xatirəsi ehtiramla yad edilib.

Həmçinin iştirakçılar tərəfindən kollegiya iclasının başlanğıcında Ümummilli Lider Heydər Əliyevin, Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş əsgər və zabitlərimizin, vətəndaşlarımızın xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Kollegiya iclasında çıxış edən baş prokuror Kamran Əliyev 2024-cü ilin Azərbaycan Respublikası üçün tarixi və siyasi baxımdan əhəmiyyət kəsb edən hadisələrlə zəngin il olduğunu bildirib. Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti, diplomatik səriştəsi və qətiyyəti sayəsində tarixin ağır sınaqlarından qalib çıxan və dünya dövlətləri arasında öz layiqli yerini tutan ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi altında 2024-cü ildə bir sıra ilklərə imza atıb.

Diqqətə çatdırılıb ki, Ermənistan tərəfinin apardığı mina terroru nəticəsində 2024-cü ildə də mina və partlamamış hərbi sursat partlayışları nəticəsində 5 nəfər həlak olub, 36 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. 2020-ci ilin noyabr ayından hazırkı vaxtadək isə ümumilikdə 382 şəxs bu terrorun qurbanıdır. Onlardan 70 nəfəri həlak olub, 312 nəfəri müxtəlif dərəcəli bədən xəsarəti alıb.

Vurğulanıb ki, Ermənistan dövləti və onun silahlı qüvvələri, o cümlədən Ermənistan tərəfindən vaxtilə Azərbaycanın işğal olunmuş ərazilərində yaradılan qondarma "Dağlıq Qarabağ Respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycan dövlətinə və xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibə aparma, soyqırımı, əhalini məcburi köçürmə, təqib, işgəncə, hərbi soyğunçuluq və digər qanunsuz əməllərə görə təqsirləndirilən 16 şəxsin barəsindəki cinayət işlərinin ibtidai istintaqı yekunlaşdırılaraq aidiyyəti üzrə baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib və artıq həmin cinayət işi üzrə məhkəmə hazırlıq iclasları keçirilir.

Bundan əlavə, Kamran Əliyev tərəfindən təəssüf hissi ilə qeyd edilib ki, ötən ilin sonunda ölkəmiz və xalqımız üçün böyük faciə hesab olunan "Azərbaycan Hava Yolları" aviaşirkətinə (AZAL) məxsus J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsinin Rusiya hava məkanında kənar fiziki və texniki müdaxilə nəticəsində Aktau şəhəri yaxınlığında qəzaya uğraması faktı ilə bağlı Prezident İlham Əliyev tərəfindən hadisənin səbəblərinin araşdırılması üçün Baş nazirin rəhbərliyi ilə Dövlət Komissiyası yaradılıb və dövlət başçısının tapşırığına əsasən cinayət işi başlanılıb. Bildirilib ki, Qazaxıstan Respublikası və Rusiya Federasiyasının prokurorluq və digər aidiyyəti qurumları ilə hadisənin əsl səbəblərinin müəyyən edilməsi istiqamətində hazırda qarşılıqlı əməkdaşlıq şəraitində istintaq hərəkətləri davam etdirilir və qısa müddət ərzində konkret nəticələrin əldə edilməsi təmin olunacaq.

Baş prokuror Kamran Əliyev prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü qeyd edib. Vurğulanıb ki, 2024-cü ildə ölkə ərazisində 33 min 379 cinayət qeydə alınmaqla onların 87,6 faizinin açılması təmin olunub, ümumilikdə ölkə üzrə cəmi 17 min 155 cinayət işinin istintaqı tamamlanıb ki, bunlardan 1086-sı prokurorluq orqanlarında istintaq edilib.

Bu müddət ərzində prokurorluq orqanları tərəfindən 735, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 13 min 551 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilib ki, ibtidai istintaqı tamamlanmış cinayət işləri və bəraətverici əsaslar olmadan rədd edilən materiallar üzrə ümumilikdə 913 milyon 744 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək onun 31 faizinin, yəni 283 milyon 411 min manat hissəsinin ödənilməsinə nail olunub.

Prokurorluq orqanlarında ibtidai istintaqı aparılaraq yekunlaşan cinayət işləri üzrə ümumilikdə 170 milyon 958 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 44 faizinin, yəni 75 milyon 300 min manat hissəsinin ödənilməsinə nail olunub, habelə 33 milyon manatdan artıq məbləğdə əmlak üzərinə həbs qoyulub.

Xüsusi qeyd edilib ki, "Elektron prokurorluq" informasiya sistemi artıq prokurorluq orqanlarının bütün fəaliyyət sferalarında tətbiq edilir, bununla yanaşı, 2024-cü ildə həmin sistem üzərindən həyata keçirilən xidməti fəaliyyətin təkmilləşdirilməsi istiqamətində zəruri işlərin icrası davam etdirilməklə ümumilikdə 19 yeni modulun istifadəyə verilməsi və "EPİS"in digər informasiya sistemlərinə inteqrasiyası istiqamətində intensiv işlərin icrası təmin edilib.

Daha sonra vurğulanıb ki, hesabat dövründə dövlət başçısının siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya, rüşvətxorluğa qarşı barışmaz mübarizənin ötən dövrlərdə olduğu kimi davam etdirilərək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən ölkə vətəndaşlarını ciddi narahat edən korrupsiya cinayətlərinin və hüquqpozmalarının daha geniş yayıldığı idarəçilik və xidmət sahələri aşkar edilməklə təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verilməsi təmin edilib.

Hesabat dövründə Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən 61 şəxs barəsində 27 cinayət işinin ibtidai istintaqı aparılmaqla baxılması üçün məhkəmələrə göndərilib, bunlardan 5 şəxs barəsində 2 iş qəsdən adam öldürmə faktları ilə bağlı olub.

Kollegiya iclasında daxili işlər, dövlət təhlükəsizliyi və ədliyyə orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə ötən illərdən bağlı qalan qeyri-aşkar şəraitdə törədilən 6 qəsdən adam öldürmə cinayətlərinin açılması təmin edilməklə hesabat dövründə onlardan 2-si üzrə təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verildiyi xüsusi vurğulanıb.

Ötən ildə prokurorluq orqanları tərəfindən 1869 apellyasiya və 587 kassasiya protestləri verilib, 843 apellyasiya protesti və 127 kassasiya protestləri təmin olunmaqla nəticədə məhkəmə səhvlərinin aradan qaldırılması təmin olunub.

Bununla belə, respublikanın tabe rayon və şəhər, o cümlədən Bakı şəhəri üzrə bəzi tabe rayon prokurorluqlarına fəaliyyətlərində yol verdikləri nöqsanlarla bağlı, xüsusən də Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin (CPM) 303 və 318-ci maddələri ilə məhkəmələr tərəfindən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlara işlərin qaytarılması və bəraət hökmlərinin çıxarılması hallarının hələ də mövcud olması ilə bağlı ciddi iradlar bildirilib.

2024-cü ildə istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması məqsədilə prosessual rəhbərlik və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə cinayət işləri üzrə icraata xitam verilməsinə dair 894 qərar əsassız və qanunsuz hesab edilərək ləğv olunub, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar tərəfindən 255 halda ittiham aktları təsdiq edilməyərək cinayət işləri əlavə istintaq aparılması üçün qaytarılıb.

Cinayət təqibindən kənar icraatlarla əlaqədar inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunmaqla yanaşı, prokurorluq orqanları tərəfindən inzibati xəta haqqında işlər üzrə 3 min 561 icraat başlanıb, inzibati xəta haqqında iş üzrə icraatın dayandırılması haqqında digər qurumlar tərəfindən qəbul edilən 122 qərar ləğv edilib.

Qeyd edilib ki, Baş Prokurorluğun "961 Çağrı Mərkəzi"nə 2024-cü ildə daxil olan müraciətlərdən 29 min 747 müraciət üzrə vətəndaşlara onları maraqlandıran müvafiq hüquqi izahlar verilib, 4 min 426 məlumat isə cinayət xarakterli olduğu üçün qeydə alınaraq araşdırılması aidiyyəti struktur qurumlara tapşırılıb və həmin məlumatlar üzrə cinayət işləri başlanıb, habelə müvafiq prokuror təsir aktları qəbul edilməklə zəruri tədbirlər görülüb.

Kollegiya iclasında bildirilib ki, ötən ildə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılıb, aparılan xidməti yoxlamalar nəticəsində müxtəlif xətalar törətdiklərinə görə 19 prokurorluq əməkdaşı intizam məsuliyyətinə cəlb edilib. Onlardan 11-nə töhmət və ya şiddətli töhmət elan edilib, 7 nəfər vəzifədən azad olunub, bir nəfər rütbədən məhrum edilməklə prokurorluq orqanlarından xaric edilib.

Hesabat dövründə prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artırılması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənib, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin həyata keçirdiyi tədbirlərlə 51 nəfər təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilib.

Həmçinin qeyd olunub ki, 2024-cü il sentyabrın 28-dən oktyabrın 2-dək Bakı şəhərində dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 58-ci iclası, 29-cu İllik Konfransı və ümumi yığıncağı keçirilib. Sentyabrın 29-da müxtəlif ölkələrin baş prokurorları və digər yüksəkvəzifəli şəxsləri də daxil olmaqla, 88 ölkə, 95 yurisdiksiya, 10 beynəlxalq təşkilatdan ümumilikdə 500-dən artıq şəxsin iştirakı ilə Bakı Konqres Mərkəzində tədbirin açılış mərasimi olub.

Bundan əlavə, aidiyyəti dövlət qurumlarının, eləcə də bir sıra dövlətlərin prokurorluq və digər hüquq-mühafizə orqanlarının rəhbər şəxslərindən ibarət tərkibdə ümumilikdə 200 şəxsin iştirakı ilə noyabrın 15-də COP29 çərçivəsində Azərbaycan Respublikasının Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyinin həmsədrliyi ilə COP29 sədrliyinin təşəbbüslərindən biri olan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda yüksəksəviyyəli iclas keçirilib.

Kollegiya iclasında hesabat dövrü ərzində görülən müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar Baş Prokurorluğun müvafiq struktur qurumlarının rəhbərlərinin iştirakı ilə ətraflı təhlil olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsinin keyfiyyətinin artırılması, cinayət prosesi iştirakçılarının hüquqlarının təmin olunması, habelə hüquqi və fiziki şəxslərə vurulan zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilinin daim diqqət mərkəzində saxlanılması istiqamətində zəruri tədbirlərin görülməsi tələb olunub.

Xüsusilə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş və itkin düşmüş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının, o cümlədən sağlamlığını itirmiş vətəndaşlarımızın müraciətlərinə təxirə salınmadan baxılmaqla, onların dərhal qəbul edilmələrinin təmin edilməsi, bu kateqoriyadan olan şəxslərə diqqət göstərilməsinin vacibliyi vurğulanıb.

Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə 2024-cü ilin nəticələrinə görə artımı müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılıb.

Daha sonra Azərbaycan Respublikası baş prokurorunun birinci müavini Elçin Məmmədov, müavinləri Elmar Camalov və Heydər Məmmədov hesabat dövründə fəaliyyət, bu zaman yol verilmiş nöqsanlar və onların aradan qaldırılması istiqamətində görülməli tədbirlər barədə, Samux, Ağcabədi və Şuşa rayon prokurorları hesabat dövründə görülmüş işlərlə bağlı, Kadrlar idarəsinin rəisi Natiq Hüseynov isə "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icrası həvalə olunan vəzifələrə təyinatlara razılıq verilməsi ilə bağlı məruzələrlə çıxış edib, məruzələr ətrafında fikir mübadiləsi aparılmaqla, qarşıda duran vəzifələrə dair tapşırıqlar verilib.

Baş prokuror cari ildə prokurorluq orqanları əməkdaşlarının qarşıda duran vəzifələrin icrasında öz bilik və peşə bacarıqlarını bütünlüklə səfərbər edəcəklərinə əminliyini ifadə edib.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

**"Avropa İttifaqının "mülki" missiyasının səlahiyyət müddətinin uzadılması və bu fonda "müşahidəçi"lərin Azərbaycan-Ermənistan sərhədlərində yenidən aktiv formada "müşahidələrə başlaması" regiona yaxşı heç nə vəd etmir. Bu, Cənubi Qafqazda yeni təxribatlara hazırlığın göstəricisidir. Təbii ki, nə missiyanın səlahiyyət müddətinin uzadılması, nə də missiyanın yenidən qəfil fəallaşması təsadüf hesab edilməməlidir".**



## İkinci Ukrayna ssenarisini hədəfləyən Aİ missiyası...

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O bildirib ki, bu proses avrostrukturlarda Azərbaycan əleyhinə qəbul edilən qərəzli davranışların məntiqi davamıdır. Yanvarın əvvəllərindəki insidenti çıxmaqla, son bir neçə ayda Azərbaycan-Ermənistan şərti sərhədlərində faktiki sülh hökm sürməkdədir və bu, iki ölkə arasında vasitəçisiz danışıqlarda əldə edilən müəyyən uğurların daha da möhkəmlənməsi və regionda dayanıqlı sülhə nail olunması üçün ciddi zəminin formalaşması deməkdir. Regionda münaqişəyə öz imperialist maraqlarının təmini üsulu kimi baxan Qərb, ələlxüsus Fransa üçün isə bu, qəbuledilməz vəziyyətdir. Cənubi Qafqazda beynəlxalq hüququn aliliyinin təmin edilməsində ehtiva olunan status-kvo bəlli qüvvələri qane etmir və onlar regionda yeni münaqişəli vəziyyətin formalaşmasında maraqlıdırlar. Xüsusən Ermənistanın baş naziri, ABŞ Dövlət katibi və Avropa Komissiyasının prezidenti arasında Ermənistan üçün təhlükəsizlik zəmanətinə dair ötən il paktın imzalanmasından sonra həmin dairələr Bakı və İrəvan arasında davamlı sülhə, sabitliyə və təhlükəsizliyə nail olmaq üçün unikal imkan yarandığı bir zamanda Cənubi Qafqazda yeni hərbi-siyasi toqquşma üçün zəmin hazırlamaqdadır.

Deputat qeyd edib ki, Qarabağ və Şərqi Zəngəzurun işğala məruz qaldığı 30 il ərzində Qərb Azərbaycanı ərazi itkiləri ilə barışdırmaq üçün davamlı şəkildə sülh və xalqlar arasında etimad quruculuğuna təşviq edib: "Lakin Vətən müharibəsi və antiterror tədbirlərində zəfərimizdən sonra avrostrukturların açıq formada sülh qarşısında maneəyə çevrildiyini görməkdəyik. Bunun isə çox sadə səbəbi var, Qərb imperializmi Cənubi Qafqazda maraqlarını "parçala və hökm sür" siyasəti üzərində quraraq Azərbaycan və Ermənistan arasında münaqişənin davamlılığına özlərinin regiondakı maraqlarının təmini üsulu kimi baxıb. Lakin Azərbaycanın 3 il ərzində Ermənistan və havadarlarını iki dəfə kapitulyasiyaya məcbur etməsi, ötən il isə Qazaxın 4 kəndini möhtərəm Prezidentin təbirincə desək, monoloq yolu ilə, diktə edərək işğaldan qurtarması ilə planları pozulan Qərb Bakıya qarşı müxtəlif platformalarda, o cümlədən Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası kimi təsisatlarda uğursuz qarayaxma kampaniyalarına başladı. Məsələn, son bir ayda "siyasi məhbus" uydurma kontenti ilə Azərbaycana qarşı miqyaslı təzyiq kampaniyası buna bir misaldır".

B.Məhərrəmov bildirib ki, Avropa İttifaqı rəsmilərinin Qarabağ ermənilərinin geri qayıtması məsələsini gündəmə gətirməsi, hətta bunun Azərbaycanın öhdəliyi olduğunu və bu məsələnin xüsusi hal olmasını şişirtməsi proseslərin üzvi tərkibidir. İlk növbədə bu bəyanat Azərbaycana qarşı başlanmış genişmiqyaslı, lakin bu günə qədər heç bir səmərəli effektə malik olmayan informasiya hücumunun bir hissəsidir. Lakin çoxsaylı hücumların fiaskoya uğraması və regionda məhz Bakının direktivlərinin reallaşması fonunda Qərb yaxşı başa düşür ki, Azərbaycan asan rəqib deyil. Təsadüfi deyil ki, istər Vətən müharibəsi, istərsə də antiterror tədbirlərində heç bir Qərb subyekti açıq formada Azərbaycanın qarşısında mövqe tuta bilmədi və onlar siyasi bəyanatlar və İrəvana vədlərlə kifayətlənməli oldular. Əlbəttə, Qərb bu reallığın fərqindədir və ötən il fevralın 14-də Milli Məclisdə andiçmə mərasimindəki tarixi çıxışında cənab Prezidentin də dediyi kimi, "Biz İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı zamanı sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir".

Deputat vurğulayıb ki, bu mənada, Avropa İttifaqının faktiki hərbiləşmiş missiyasının heç bir hüquqi zəmin olmadan səlahiyyət müddətinin uzadılması mahiyyətcə Ermənistanın təhlükəsizliyinin təmin edilməsi yox, Ermənistanın revanşa hazırlaşdırılması ilə Azərbaycana hərbi təzyiq və müdaxilə planının tərkib hissəsidir: "Üstəlik, bu dəfə təcavüzkar blok daha əhatəli plan üzrə hərəkət etməyə çalışır. Məsələn, Qərb Azərbaycanda qanunsuz maliyyələşmə ilə yaratdığı informasiya resurslarını daha da gücləndirərək hazır vəziyyətə gətirməyə çalışırdı. Lakin xüsusən son bir neçə ayda Bakının qabaqlayıcı tədbirləri faktiki olaraq Qərbi bu alətindən də müəyyən mənada məhrum etdi. Nəticədə, daha da azğınlaşan Qərb artıq gizlin yox, açıq fəaliyyətə keçməklə güc nümayiş etdirmək niyyətindədir. Prezident İlham Əliyevin də dediyi kimi, "Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı". Yəni ötən dövr ərzində Avropa İttifaqının Ermənistandakı missiyasının pensiyaçı hərbçilərdən ibarət "mülki" xarakteri ilə pərdələnən Qərb artıq regionda özlərinin hərbi mövcudiyyətlərini legitimləşdirmək niyyətini gizlətmir".

Siyasətçi qeyd edib ki, faktiki olaraq Avropa İttifaqı və "sərhəd təhlükəsizliyinin təmini üçün" hərbçilərini Ermənistana yerləşdirməkdə olan ABŞ məqsədli formada Ermənistandakı revanşist dairələrdə yeni münaqişə başlayarsa, İrəvana hərbi dəstək verəcəyinə dair illüziya formalaşdırır. Bu isə Ermənistanı yeni münaqişəyə təşviq etməkdir. Belə olan halda, Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatlarda da ifadə olunduğu kimi, Aİ və ABŞ bölgədə sabitliyi pozan hər hansı mümkün ssenariyə görə Ermənistanla birgə məsuliyyəti bölüşəcəklər. Üstəlik, Azərbaycan da proseslərə sükutla qəbullanmaq niyyətində deyil. Rəsmi Bakı hələlik bütün tərəfləri sülh səylərinə əks-təsir göstərən və regionda yeni eskalasiya və gərginlik dalğalarına səbəb ola biləcək addımlardan çəkinməyə çağırır. Lakin qarşı tərəf daha da irəli getməyə çalışarsa, cənab İlham Əliyevin Prezident kimi səlahiyyətlərinin icrasına başlayan zaman elə ilk bəyanatındaca ifadə etdiyi kimi, "bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək".

Deputat deyib ki, Avropa İttifaqının "mülki" missiyasının səlahiyyət müddətinin uzadılması ikinci Ukrayna ssenarisi və ikinci cəbhənin açılmasını hədəfləyir və bu baxımdan proses yalnız Azərbaycana deyil, ümumilikdə region ölkələrinə, ələlxüsus da Rusiya və İranın maraqlarına qarşı yönəlib. Lakin, təəssüf ki, nə daim qırmızı cizgiləri barədə bəyanatlar verməyi sevən cənub qonşumuz İran, nə də Qərbə münasibətdə barışmaz mövqe sərgiləyən Rusiya hələlik Qərbin açıq hərbi həmləsinə reaksiya verir. Baxmayaraq ki, Qərbin Ermənistanda hərbi mövcudiyyəti ilk növbədə elə Moskva və Tehranın maraqlarına sarsıdıcı zərbə olacaq. Aydındır ki, Azərbaycanın Vətən müharibəsindəki qələbəsindən sonra Bakı və İrəvan arasında "dialoq platforması" təklif edən beynəlxalq subyektlərdən biri bu gün regiona təxribatçı missiya göndərən Avropa İttifaqı olub. Deputat vurğulayıb ki, Azərbaycan sülh prosesinə xidmət edən heç bir platformadan geri çəkilməyib: "O cümlədən Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə başlanmış, Avropa İttifaqı çərçivəsində həyata keçirilən danışıqlara da böyük ümid və gözləntilərlə yanaşırdıq. Danışıqların ilk dövrlər ardıcıllığının təmin olunması bizdə bu prosesin effektiv nəticə verəcəyinə dair təsəvvür formalaşdırmışdı. Lakin sonrakı dövrlər, xüsusən 2022-ci ilin Praqa prosesindən sonra Fransa prezidenti Emmanuel Makronun bu prosesə qeyri-adekvat müdaxiləsi, o cümlədən Fransanın Avropa İttifaqındakı nisbi hakim mövqeyi Avropa İttifaqı platformasını real sülh üçün effektsiz və qərəzli mühitə çevirdi. Sonrakı dövrdə Avropa İttifaqının "sülhə xidmət edən" monitorinq missiyası adı altında regiona hərbi və təhlükəsizlik əməkdaşlarını yollaması, daha sonra bu missiyanın Avropa İttifaqına üzv olmayan digər dövlətlərin də nümayəndələri ilə "zənginləşdirilməsi" proseslərdə Avropa İttifaqının bitərəf rolunu tamamilə kölgələdi. Sonrakı dövrlərdə Qranada prosesində Avropa İttifaqının Fransanın dirijor çubuğuna tabe edilməsi, ardınca Avropanın digər strukturları, həmçinin Avropa Parlamentində, Avropa Şurasında, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan əleyhinə səslənən ədalətsiz, qərəzli və məqsədli hücumlar, əslində, Avropa İttifaqının çoxdan ayırıcı xətlərin qurbanına çevrildiyini göstərdi. Digər tərəfdən, Avropa İttifaqının ayrı-ayrı strukturlarının, o cümlədən "Sülh" Fondunun Ermənistan silahlı qüvvələrinə açıq yardım paketini təsdiqləməsi sülh prosesində Avropa İttifaqının dayandığı nöqtə ilə bağlı təsəvvürlərimizi tamamilə aydınlaşdırdı".

Deputat bildirib ki, Azərbaycan sülh prosesinin beynəlxalq gündəliyin məsələsi olmadığını, ayrı-ayrı dövlətlərin regiona münasibətlərinin Azərbaycan-Ermənistan münasibətlərindən asılı olmadığını dəfələrlə bəyan edib. Prezident İlham Əliyevin Azərbaycan və Ermənistan arasında danışıqların vasitəçisiz formada daha effektiv olacağına dair qəti qənaəti sonrakı dövrlərdə 2023-cü ilin 7 dekabr bəyanatı, habelə ötən il 19 aprel razılaşmaları fonunda özünü bir neçə dəfə köklü surətdə doğruldub. Belə olan təqdirdə, əlavə platformaların axtarışı, o cümlədən digər subyektlərin prosesə müdaxiləsi imkanlarının formalaşdırılması bölgədə sülh və sabitlik üçün yaxşı heç nə vəd etmir. Eyni zamanda Ermənistanın özünün fərqli platformalar axtarmaq cəhdi də səmimi deyil, çünki ötən il Londonda Böyük Britaniyanın "Avropa Siyasi Birliyi"nin Zirvəsi çərçivəsində Azərbaycan və Ermənistan liderləri üçün təşkil etdiyi platforma məhz İrəvanın gözlənilməz və qeyri-praqmatik davranışları ilə uğursuz oldu. Belə bir situasiyada Avropa İttifaqının yenidən fəallaşması ağlabatan görünmür. Biz təbii ki, sülhə xidmət edən bütün platformalara öz milli maraq və mənafelərimizi, o cümlədən beynəlxalq hüququn aliliyini qorumaqla etiraz etmirik. Lakin bu platformaları təşkil edəcək tərəflər qərəzsiz və vicdanlı davrandıqlarını sübut etməlidirlər. Hələ də revanşist əhvalda olan Ermənistan silahlı qüvvələrinə milyonlarla yardım ayıran bir təsisat Azərbaycan və Ermənistan arasında real sülhdə maraqlı ola bilməz. Cənubi Qafqazda son situasiya göstərməkdədir ki, əslində, aralarında ziddiyyətlər getdikcə dərinləşməkdə olan qütbün əsas subyektlərini bu bölgədə dayanıqlı sülh və sabitlik yox, ilk növbədə özlərinin mənafeləri maraqlandırır. Eyni zamanda çox təəssüflə onu da qeyd etməliyik ki, həmin maraqlar daha çox təcavüzkar mahiyyətdə ifadə olunur və bölgənin yerli xalqları və dövlətləri üçün köklü formada yaxşı heç nə vəd etmir. Sirr deyil ki, Cənubi Qafqaz yerləşdiyi təbii-coğrafi şəraitlə əlaqədar hər zaman irəli güclərin diqqət mərkəzində olmuş və buna görə də regionda dayanıqlı münaqişələrə, demək olar ki, ara verilməmişdir. Lakin Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığında ölkəmizin Vətən müharibəsi və antiterror tədbirlərində qazandığı qələbə ilə Cənubi Qafqaz, nəhayət ki, dayanıqlı sülh və sabitlik üçün unikal imkana qovuşub. Xüsusən marionet kimi istifadə olunan Ermənistanın və havadarlarının Azərbaycana münasibətdə işğal və separatizmdə ehtiva olunan təsir rıçaqlarından məhrum olması, o cümlədən Bakı və İrəvan arasında birbaşa təmasların başlaması, sülh prosesinin iki ölkə arasında dövlət sərhədlərinin delimitasiya və demarkasiya prosesindən ayrılaraq fərqli istiqamətlərdə, lakin əlaqəli formada davam etdirilməsi, həqiqətən, Cənubi Qafqaz üçün gözlənilməz, lakin unikal formuldur. Ermənistanın baş naziri Nikol Paşinyanın özünün də etiraf etdiyi kimi, Azərbaycan və Ermənistan arasında mümkün sülh yalnız iki dövlət yox, bütövlükdə regionun, o cümlədən regiona qonşu olan iri güclərin özlərinin də bölgə üzrə maraq və mənafelərinə xidmət edir, beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərə müvafiq olaraq dövlətlər arasında əməkdaşlıq mühitinin dərinləşməsinə geniş imkanlar yaradır.

B.Məhərrəmov vurğulayıb ki, lakin bölgədə marağı olan iri güclərin heç biri bu regionda dayanıqlı sülhü arzulamır: "Ötən 30 il ərzində vasitəçilik missiyası ilə pərdələnərək Azərbaycan və Ermənistan arasında münaqişənin davamlılığı üçün "qətiyyətlə" səy göstərən beynəlxalq subyektlər, təbii ki, indiki məqamda Cənubi Qafqazda bərabərhüquqlu əməkdaşlıq konfiqurasiyasında maraqlı ola bilməz. Aydındır ki, ABŞ, Fransa və yaxud Qərb qütbünün hər hansı bir subyekti üçün Ermənistan ayrıca anlamda maraqlı deyil. Maraqlı olan həmin dövlətlərin özlərinin iradələrini diktə edə biləcəyi marionet subyektlərin mövcudluğudur və Ermənistan bu tələblərə birmənalı şəkildə cavab verir. Azərbaycanın isə mövqeyi kifayət qədər aydındır, ölkəmiz bölgədə yeni münaqişə ocağının yaranmasını, yaxud bu bölgənin qütblərarası ziddiyyətin məkanına çevrilməsini arzulamır. Maraqlısı burasındadır ki, Rusiyaya münasibətdə kifayət qədər sərt davranan Qərb qütbü, hətta Macarıstanın timsalında ayrı-ayrı dövlətlərə münasibətdə məhz Rusiya ilə əlaqələrə görə sanksiya potensialını dilə gətirdiyi halda, Ermənistanın Rusiya ilə artan iqtisadi dövriyyəsini görməzdən gəlir, əksinə, Ermənistana Qərbdən gələn yardımların artırılması müşahidə edilməyə başlanır. Təbii ki, bu, ikili standartdır və Qərbin özünün Rusiyaya münasibətdə davranışlarının sadəcə dövri oyun olması barədə ciddi şübhələr yaradır. Maraqlıdır ki, eyni ikili standartı Rusiya tərəfdən də müşahidə edirik və Ermənistanın təşviqi ilə regiona ayaq açan Qərbin tədricən hərbi-siyasi mövcudiyyətini möhkəmləndirməsi fonunda Kreml Ermənistana münasibətdə radikal addımlar atmaqdan çəkinir. Baxmayaraq ki, ABŞ-nin, yaxud Avropa İttifaqının Ermənistanda möhkəmlənməsi hələ də bu ölkənin İran və Türkiyə ilə sərhədlərini qoruyan Rusiya üçün təhdiddir və ilk növbədə rəsmi Moskvanın regiondakı mövqelərinin zəifləməsi deməkdir. Lakin qəribədir ki, Rusiya bu reallığı görməzdən gəlir və bölgədə özünün maraqları üçün təhdidə çevrilən qüvvələrin cəmləşməsinə qucaq açan Ermənistanı hərbi, siyasi və iqtisadi cəhətdən gücləndirməyə davam edir. Bu onu bir daha göstərir ki, əslində, Moskva da ikili standartlarla hərəkət edən Qərbdən mahiyyətcə fərqlənmir".

Məsələlərin pərdəarxasını əhatələyən çox böyük və gizli məqamlar olduğunu deyən deputat bildirib ki, Ermənistan da növbəti qurbandır və erməni xalqı bu reallığı nə qədər tez görə bilsə, bu bir o qədər onlar üçün faydalı olar. Azərbaycana gəlincə, prosesləri diqqətlə izləyir və bölgədə əməliyyat şəraitinə tam şəkildə nəzarəti ehtiva edən status-kvonun hökm sürməsi, ölkənin siyasi və iqtisadi cəhətdən tam müstəqilliyi proseslərin gedişinə uyğun olaraq adekvat qərar qəbul etmək suverenliyini tanıyır. Bu isə o deməkdir ki, regionda maraqlarını qanuni, hüquqi əsaslarla təmin etmək istəyən istənilən beynəlxalq subyektin regionda hesablaşacağı yeganə söz sahibi Azərbaycan Respublikasıdır. Azərbaycan regionda əməliyyat şəraitinə tam şəkildə nəzarət etdiyi üçün digər uğursuz cəhdlər kimi Avropa İttifaqının faktiki hərbiləşdirilmiş missiyasının yeni təxribat cəhdləri də bölgədə dayanıqlı status-kvoya heç cür təsir edə, Azərbaycanın yaratdığı reallığı dəyişə bilməz.



***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Ermənistan yeni təxribata hazırlaşır

## İrəvanın məkrli oyunları bu ölkənin sülh sazişinin imzalanmasında maraqlı olmadığını göstərir

**"Ermənistan tərəfi zaman-zaman özünü sülhsevər dövlət kimi təqdim etməyə çalışsa da, əslində, regionumuzda dayanıqlı sülh və sabitliyin təmin edilməsi istiqamətində bu dövlət tərəfindən konkret əməli addımların atılmasını müşahidə etmirik. Bu, istər Fransa və Hindistandan müxtəlif təyinatlı silahların alınması, istərsə də sərhəd bölgəsində təxribatçı addımların atılması ilə özünü büruzə verməkdədir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Zaur Şükürov deyib. Deputat bildirib ki, ilk olaraq Azərbaycan-Ermənistan şərti sərhəd bölgəsində yalnız qısa müddət üçün yerləşdirilməsi nəzərdə tutulmuş Avropa İttifaqının müşahidə missiyasının müddətinin Azərbaycan tərəfi ilə razılaşdırılmadan ardıcıl olaraq uzadılması, habelə missiyanın tərkibinə Aİ-yə üzv olmayan dövlətlərin də təmsilçilərinin daxil edilməsi bu kimi təxribatçı əməllərin tərkib hissəsidir. Görünür, Azərbaycan Prezidenti İlham Əliyevin mükəmməl sərkərdəliyi və şəhidlərimizin, qazilərimizin, əsgər və zabitlərimizin misilsiz qəhrəmanlığı sayəsində işğalçı Ermənistan ordusunun məğlub edilməsindən sonra regionda yaratdığımız yeni geosiyasi reallıqlarla Ermənistan tərəfi hələ də barışmaq istəmir. "Bir müddət əvvəl mediada yer almış Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın 1993-cü ildə etdiyi faşist, irqçi xarakterli çıxışı, həmçinin bu ölkənin hazırkı baş naziri Nikol Paşinyanın istər bu vəzifəyə seçilənədək, istərsə də hakimiyyətdə olduğu dövrlərdə səsləndirdiyi təxribatçı və işğalçı məqsədlərə xidmət edən çağırışları bu ölkə siyasətçilərinin həqiqi niyyətlərini aşkar nümayiş etdirir", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Prezident İlham Əliyevin mükəmməl dövlət idarəçiliyi və son dərəcə uğurlu xarici siyasət kursu sayəsində dövlətimizin beynəlxalq miqyasda nüfuzunun davamlı olaraq artması, güclü iqtisadiyyata və qüdrətli orduya malik ölkəmizin regionda sülh və sabitliyin bərqərar olmasına xidmət edən sülhsevər çağırışları, nəhayət, Ermənistan rəhbərliyini fitnəkar əməllərindən çəkindirməlidir. Əks halda, ölkəmizə qarşı istənilən təxribatçı addımlarla bağlı dövlətimiz, müzəffər və qüdrətli ordumuz dərhal müvafiq tədbirlər görəcəkdir. Azərbaycanla Ermənistan arasında sülh sazişinin əksər bəndləri üzrə razılığın əldə olunduğu hazırkı məqamda istər Ermənistan rəhbərliyi, istərsə də öz riyakar davranışları ilə bu ölkədəki revanşist qüvvələri ruhlandıran bəzi dövlətlər öz məkrli məqsədlərindən əl çəkməli və regionumuzda sülh və sabitliyin bərqərar olması, bölgəmizin gələcək inkişafı və region xalqlarının əmin-amanlıq şəraitində yaşaması üçün düşünülmüş addımlar atmalıdırlar.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

*"Akşam" qəzeti:*

# "ABŞ və Ermənistan qeyri-qanuni bukmeyker saytlarının əsas mənbəyidir"

**2024-cü ildə Türkiyədə bloklanan qeyri-qanuni bukmeyker saytlarının əksəriyyəti ABŞ və Ermənistanda qeydə alınıb. AZƏRTAC xəbər verir ki, bu barədə yanvarın 27-də Türkiyənin "Akşam" qəzeti məlumat yayıb.**

Nəşr Türkiyə Maliyyə Nazirliyi nəzdində fəaliyyət göstərən Milli Piyanqo Qurumunun məlumatlarına istinadla bildirir ki, təkcə ötən il virtual mühitdə qumar və mərc oyunları xidmətləri göstərən 233 min onlayn resursa giriş bloklanıb.

"Dünyanın 95 ölkəsində qeydiyyatdan keçmiş saytlar bloklanıb. Ümumi sayın ən böyük payı ABŞ (56 faiz) və Ermənistanın (17 faiz) payına düşüb. İlk üçlüyü Niderland (6 faiz) tamamlayır", - deyə nəşr bildirir və yuxarıda qeyd olunan ölkələri qeyri-qanuni bukmeyker xidmətləri "bataqlığının mənbəyi" adlandırır.

Milli Piyanqo qeyri-qanuni mərc oyunları və digər bukmeyker xidmətləri ilə mübarizəni davam etdirmək əzmində olduğunu vurğulayaraq, vətəndaşları dələduzluğun qurbanı olmamağa çağırıb.



# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

# Paşinyan separatizmə açıq dəstək verir

## O, səsləndirdiyi gülünc iddialarla Ermənistanın Azərbaycana qarşı hələ də ərazi iddiası güddüyünü nümayiş etdirir

**Yanvarın 25-də Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsinin İctimai televiziyasına verdiyi müsahibədə guya regional eskalasiyaya rəvac vermək məqsədilə separatçı rejimin nümayəndələrinə qarşı psixotrop maddələrin tətbiq olunması ilə bağlı gülünc iddialar səsləndirib. Bununla da baş nazir Ermənistanın Azərbaycana qarşı hələ də ərazi iddiası güddüyünü və bu çirkin niyyətdən əl çəkmədiyini açıq nümayiş etdirib.**



"Sülh göyərçini" maskası arxasında gizlənən Paşinyanın əsl xislətinə biz çoxdan bələdik. Bu həmin Paşinyandır ki, 2019-cu ildə Xankəndiyə gələrək həyasızcasına "Qarabağ Ermənistandır nöqtə" demişdi, Şuşada yallı getmişdi, 2023-cü il sentyabrın 2-də ölkəmizin ərazisindəki separatçı rejimin yaradılmasının "ildönümü" münasibətilə "təbrik mesajı" vermişdi, Qarabağda qondarma "prezident seçkiləri"nə dəstək göstərmək kimi yaramaz cürət nümayiş etdirmişdi. Bir sözlə, hiyləgər Paşinyan Qarabağdakı separatçı rejimi legitimləşdirməkdən ötrü bütün alçaq gedişləri etmişdi.

Bütün bu faktları göz önünə gətirəndə Paşinyanın son gülünc və absurd bəyanatı heç də təəccüblü görünmür. Çünki "qozbeli qəbir düzəldər", - deyiblər.

### Proses ətrafında manipulyasiya başladılıb

2023-cü ilin sentyabrında Azərbaycan Qarabağda apardığı 23 saatlıq antiterror tədbirləri nəticəsində bütün ərazilərimizdə suverenliyini tam bərpa edib. İllərdir sürdürülən sərsəm "Miatsum" planları məhv edilib, qanunsuz rejimin "bayraq" adlandırdığı əski parçası layiq olduğu yerə - ayaqlarımızın altına atılıb, xuntaçılar isə bir-bir yaxalanaraq Azərbaycan qanunları qarşısında cavab verməkdən ötrü Bakıya gətirilib.

Xatırladaq ki, 2 may 2024-cü ildə Azərbaycan baş prokurorunun qərarı ilə 1987-ci ilin oktyabr ayından 22 aprel 2024-cü ilədək törədilmiş cinayətlərin bir qismi ilə bağlı Baş Prokurorluq və respublikanın ayrı-ayrı istintaq qurumlarında istintaq edilən 1389 cinayət işi bir icraatda birləşdirilib və Azərbaycan Baş Prokurorluğunun rəhbərlik etdiyi, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Hərbi Prokurorluğun müstəntiqlərindən ibarət tərkibdə istintaq olunub. Toplanmış mötəbər sübutlar əsasında ümumilikdə 2548 epizod üzrə Ermənistan silahlı qüvvələri və qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər cinayətkar birlikdə iştirak etdiyi dövrlərə uyğun olaraq Azərbaycan Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilib.

Bununla yanaşı, Ermənistan vətəndaşı olan, Azərbaycan Cinayət Məcəlləsinin işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və digər maddələrlə təqsirləndirilən Ruben Vardanyanın məhkəmə prosesi davam etdirilir.

Əllərini Azərbaycan xalqının qanına bulamış erməni qatilləri məhkəmə qarşısında cavab verəcəklər. Çox tezliklə onların törətdikləri cinayət əməllərinə qanuni qiymət veriləcək və layiqli cəzalarını alacaqlar.

Təbiidir ki, bütün bunlar açıq-aşkar separatizmə dəstək verən Paşinyan hökumətinin ürəyincə deyil və Ermənistan qanunla aparılan bu proses ətrafında fərqli manipulyasiyalar etməyə çalışır.

### Siyasi manipulyasiya ilə xələl gətirilə bilinməyəcək haqq işi

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, Ermənistanın baş nazirinin İctimai televiziyaya verdiyi müsahibədə guya regional eskalasiyaya rəvac vermək məqsədilə separatçı rejimin nümayəndələrinə qarşı psixotrop maddələrin tətbiq olunması ilə bağlı səsləndirdiyi iddiaların heç bir əsası yoxdur və tamamilə gülüncdür. Təqsirləndirilən şəxslərin bütün hüquq və vəzifələri lazımi qaydada təmin olunub, izah edilib, bütün məhkəmə prosesi və ifadələri qeydə alınıb. Azərbaycanda məhbuslara qarşı qəddar rəftarla bağlı iddialar müstəqil şəkildə, o cümlədən Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən araşdırılıb və bu iddiaların yalan olduğu təsbit edilib.

Şərhdə vurğulanır ki, bu ölkənin siyasi rəhbərliyinin bir zamanlar Azərbaycana qarşı təcavüz aktı və siyasətini davam etdirmək naminə bütün vasitələrlə açıq şəkildə dəstəklədikləri şəxslərin hazırda müharibə cinayətləri törətməkdə ittiham olunması ilə əlaqədar davam edən məhkəmə prosesi ilə bağlı nə qədər əsəbi olduğunu nümayiş etdirir: "Üzdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını iddia edən Ermənistanın baş nazirinin ölkəmizin ərazilərində saxladığı qondarma rejimi təbliğ etdiyini və 2 sentyabr 2023-cü il tarixində, nümayəndələrinin Azərbaycan tərəfindən məsuliyyətə cəlb edilməsindən bir neçə həftə əvvəl, separatçı xunta rejimini qondarma "müstəqillik" münasibətilə təbrik etdiyini heç kim unutmayıb".

O da vurğulanıb ki, Ermənistanın işğalçı və təcavüzkar ölkə kimi dövlət məsuliyyəti və bir sıra qanunsuz əməlləri danılması mümkün olmayan faktdır. Beləliklə, bu əməllərdə təqsirləndirilən şəxslərin məsuliyyətə cəlb olunması, siyasi manipulyasiya ilə xələl gətirilə bilinməyəcək qədər haqq işidir.

### İrəvan odla oynayır

Ümumiyyətlə, Vətən müharibəsindən sonra Azərbaycana qarşı törətdiyi ardıcıl siyasi, hərbi və digər təxribatları da göstərir ki, İrəvan sülhə, yox revanşa hazırlaşır. Ermənistanın konstitusiyasında, qanunvericilik aktlarında ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddialar var. Lakin Paşinyan hökuməti konstitusiyasına dəyişiklik etmək barədə düşünmək belə istəmir. Eyni zamanda İrəvan ATƏT-in de-fakto fəaliyyətini dayandırmış Minsk qrupunun "dirildilməsinə" çalışır, ölkəmizlə birlikdə onun ləğvi üçün müraciət etməkdən yayınır. Həmçinin başda neokoloniolist Fransa olmaqla Qərb havadarlarının köməyi ilə silahlanır, sərhəddimizə Aİ missiyası adı altında üçüncü ölkələrin hərbi güclərini yerləşdirir.

Bu günlərdə Ermənistan silahlı qüvvələrinin Kəlbəcər istiqamətində xəndəklər qazmaqda davam etdiyini əks etdirən fotolar da sosial mediada yayılıb.

Göründüyü kimi, İrəvanın bütün bu təxribatçı addımları bölgədə vəziyyəti gərginləşdirməyə hesablanıb. Ancaq Ermənistan odla oynamaqdan vaz keçməli və təxribatçı hərəkətlərinə son verməlidir. Əks təqdirdə, güvəndiyi xarici güclər, aldığı silahlar belə Ermənistanı Azərbaycanın "dəmir yumruğu"nun qəzəbindən qoruya bilməyəcək. Necə ki 2020-ci il Vətən müharibəsində, 2023-cü il antiterror tədbirləri zamanı belə oldu!

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Ermənistanın sülhə xidmət etməyən əməlləri

## Belə davam edərsə, İrəvan yaramaz hərəkətlərinin ağır nəticələrini görəcək

**Qarabağ və Şərqi Zəngəzur ərazilərimizi Ermənistan otuz ilə yaxın işğal altında saxladı. Erməni vandalları nə beynəlxalq hüquqdan, nə dünya ictimaiyyətinin qınağından çəkindilər. Azərbaycanın ölkə və dünya əhəmiyyətli abidələrini, yaşayış yerlərini xarabalığa çevirdilər. Təbiətə qarşı da eyni vəhşiliyi göstərdilər. Tarixi bilinməyən sıx meşələrimizi məhv etdilər, saf bulaqlarımızı qurutdular.**

Otuz il müddətində Ermənistan silahlı qüvvələrinin işigücü Qarabağda, Şərqi Zəngəzurda səngər qazmaq, istehkamlar qurmaq oldu. Aydın məsələdir, zəbt etdikləri torpaqların onların olmadığını yaxşı bilirdilər. Doğrudur, himayədarları sülh danışıqları adı ilə vaxtı uzadırdılar. Bununla qəsbkar Ermənistanın rahat şəkildə Azərbaycan torpaqlarında məskunlaşma siyasəti aparmasına şərait yaradırdılar. İşğalçı ölkə isə bu imkandan daha çox Qarabağda və Şərqi Zəngəzurda silahlı qüvvələrinin mövqeyini möhkəmlətmək üçün istifadə edirdi.

"Böyük Ermənistan" uydurmaları ilə işğalçılıq planlarını davamlı şəkildə həyata keçirmiş, başqa bir ölkənin - Azərbaycanın əzəli torpaqlarında dövlət yaratmış ermənilər XX əsrin sonuncu onilliyində öz xislətlərini dəyişmədiklərini nümayiş etdirmişdilər. Münaqişə, qan-qada salaraq Azərbaycanın iyirmi faiz ərazisini də ələ keçirmişdilər. Ancaq Azərbaycan öz ərazilərini Ermənistana güzəştə getmək niyyətində deyildi. Dövlətimizin başçısı İlham Əliyev yüksək kürsülərdən bəyan edirdi: "Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmasına imkan verməyəcəyik. Əgər kimsə ermənilər üçün ikinci dövlət yaratmaq istəyirsə, qoy öz ərazisinin bir hissəsində yaratsın".

Zəbt etdiyi Azərbaycan ərazisində qurduğu istehkamların, qazdığı səngərlərin aşılmaz olduğuna özünü inandıran Ermənistan yanıldığını 2020-ci ilin payızında baş verən Vətən müharibəsində gördü. İşğalçı ölkənin silahlı qüvvələri illər boyu qazdıqları səngərlərlə, yaratdıqları istehkamlarla qəhrəman Azərbaycan Ordusunun qarşısını kəsə, dayandıra bilmədi. 44 günlük müharibədə otuz ilə yaxın davam edən işğala son qoyuldu. Qarabağ və Şərqi Zəngəzur işğalçılardan azad edildi. Azərbaycan dövləti ədaləti özü bərpa etdi. 2023-cü ildə aparılan lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağda qalaraq terror əməllərini davam etdirən Ermənistan silahlı qüvvələrinin tör-töküntüləri və separatçılar da təslim oldular. Azərbaycan suverenliyinin tam bərpasına nail oldu.

Azərbaycan sülhsevər dövlətdir. Ölkələr arasında dostluq əlaqələrinin qurulmasına, möhkəmləndirilməsinə xüsusi önəm verir. Cənubi Qafqazın lider dövləti olan Azərbaycan mövcud olduğu regionun inkişafında da mühüm rol oynayır, sabitliyin, sülhün, təhlükəsizliyin təmin olunmasında gərəkli addımlar atır.

Uzun müddətdir gündəmdə olan Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanmasına da, əslində, heç bir əngəl qalmayıb. Hər iki ölkə bildirir ki, sülh sazişi üçün tarixi fürsət yaranıb. Lakin Ermənistan xarici havadarlarının dəstəyi ilə yenidən silahlanmaqla məsələni düyünə salmağa çalışır. Hər zamankı kimi riyakarlıq edərək sülh bəyanatları fonunda silahlanmağa davam edir. Hindistandan, Fransadan aldığı hərbi texnika və silahlarla məğlub ordusunu gücləndirəcəyini güman edir.

Hələ ötən il Ermənistan-Azərbaycan şərti sərhədinin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin bölmələri və döyüş texnikasının cəmləşdirilməsi ilə bağlı Azərbaycan Müdafiə Nazirliyi tərəfindən rəsmi məlumat yayılmışdı. Məlumatda diqqətə çatdırılmışdı ki, şərti sərhədboyu Ermənistanın qoşunlarını cəmləşdirməsi və hücum xarakterli dayaq məntəqələrini qurması, müxtəlif istiqamətlərdə uzunmüddətli atəş nöqtələrini yaratması, fortifikasiya qurğularını inşa etməsi bölmələrimizin sərəncamında olan xüsusi texniki vasitələr və vizual müşahidə ilə qeydə alınmışdır. Bildirilmişdi ki, yeni inşa edilmiş dəmir-beton fortifikasiya qurğularında Ermənistan silahlı qüvvələrinin artilleriya sistemləri, digər hücum silahları və ağır atəş vasitələri yerləşdirilir. O zaman da Azərbaycan Müdafiə Nazirliyi bəyan etdi ki, Azərbaycan Ordusu tərəfindən Ermənistanın törədə biləcəyi hər hansı təxribatın qarşısı qətiyyətlə alınacaq, vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyi və onun havadarlarının üzərinə düşəcək.

Son günlər Ermənistan silahlı qüvvələrinin Azərbaycanla şərti sərhədlərində - Basarkeçərdə, Kəlbəcər istiqamətində səngərlər qazmaqda davam etməsi rəsmi İrəvanın məkrli niyyətindən əl çəkmədiyini göstərir. Görünən odur ki, Ermənistan bəzi dövlətlərin təsiri və təzyiqləri altında sülh müqaviləsinin imzalanmasından yayınmağa çalışır. Ermənistan silahlı qüvvələrinin Azərbaycanla şərti sərhədlərində atəşkəsin pozulması üçün zəmin yaratmaları, səngərlər qazmaları da rəsmi İrəvanın sülh niyyətində olmadığının təzahürüdür.

Ermənistanın xarici havadarlarının verdiyi silahlarla yeni xülyalara düşməsi region üçün təhdid yaradır. Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bildirdi ki, İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri Ermənistanda çox ciddi qəbul edilməlidir. Dövlətimizin başçısı vurğuladı ki, Ermənistanda gedən silahlanma prosesi Cənubi Qafqaz üçün yeni təhdid amilidir, yeni təhlükə yarada bilər.

Azərbaycanın hərbi qüdrəti, ordusunun peşəkarlığı hər kəsə məlumdur. Və dövlətimiz bu nailiyyətlərlə kifayətlənmək, arxayınlaşmaq niyyətində deyil. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın dövlət büdcəsinin əhəmiyyətli hissəsi hərbi və təhlükəsizlik məsələlərinə xərclənəcək: "Mən bunu artıq bir dəfə demişəm: biz Qarabağın və Şərqi Zəngəzurun bərpasına 4 milyard, hərbi və təhlükəsizlik məsələlərinin həlli üçün 8,4 milyard manat vəsait xərcləyirik. Bu, tam fərqli ola bilərdi. Çünki Ermənistanın silahlanma yarışı, bizim də maliyyə resurslarımızı əsas məsələlərdən başqa hərbi məsələlərə cəlb etməyə məcbur edir. Mən onu da bildirmişdim ki, Ermənistan silahlanma yarışında bizimlə rəqabət apara bilməz. Ancaq biz burada bir məsələni də nəzərə almalıyıq. Ermənistana bu silahlar ya pulsuz verilir, ya da ki, kredit şəklində. O kreditlər də müəyyən dövrdən sonra silinir. Eyni zamanda Avropa İttifaqının dırnaqarası sülh fondundan. Dırnaqarası, çünki sülh fondu, əslində, sülh məqsədləri üçün istifadə olunmalıdır. Onların sülh fondu isə silahlanmaya istiqamətləndirilir. Oradan da birinci ödəmə edildi və bizdə olan məlumata görə, bu, son ödəmə deyil".

Dövlətimizin başçısı bir daha vurğuladı ki, Ermənistanın silahlanması, sadəcə olaraq, yeni gərginliyə gətirib çıxaracaq: "Biz bunu istəmirik. Biz sülh istəyirik".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın müstəmləkə altında olan xalqların haqq səsini dünyaya çatdırması dəyərləndirilir

## Ölkəmiz neokolonializm əleyhinə mübarizədə qətiyyətli mövqe tutub

**Azərbaycan dünyada Fransa kolonializminə qarşı mübarizənin simvoluna çevrilib. Azadlığı uğrunda mübarəzə aparan kanak xalqı sülhün, ədalətin və ədalət uğrunda mübarizənin rəmzi kimi Yeni Kaledoniyada yenidən Azərbaycan bayrağını ucaldıb. Heç şübhəsiz ki, kanakların bu jesti illərdən bəri müstəmləkəçilik əleyhinə mübarizə aparan Afrika xalqlarının haqq səsini dünyaya çatdıran Azərbaycana verdikləri dəyərdir.**

Yanvarın 23-24-də Kanakidə (Yeni Kaledoniya) Fransa müstəmləkəsi olan əraziləri özündə birləşdirən Beynəlxalq Dekolonizasiya Cəbhəsinin ilk konqresi keçirilib. Xatırladaq ki, Beynəlxalq Dekolonizasiya Cəbhəsi 2024-cü ilin iyulunda Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Bakıda Fransanın son koloniyalarının nümayəndələri tərəfindən yaradılıb. Konqresdə Yeni Kaledoniya, Fransız Polineziyası, Martinik, Qvadelupa, Fransız Qvianası və Korsikanın müstəqilliyi uğrunda mübarizə aparan parlamentarilər, siyasi partiyalarının liderləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, ictimai hərəkatların başçıları və digərləri iştirak ediblər.

Sakit okeanın cənub-qərb hissəsində adalar qrupundan ibarət olan bu dövlət 1853-cü ildən Fransanın tabeliyində yaşayır. 250 min əhaliyə və 20 min kvadratkilometr əraziyə malik olan Yeni Kaledoniya adası Sakit okeanda Avstraliya ilə Yeni Zelandiyanın arasında yerləşir.

XIX əsrin ortalarından etibarən ingilis və fransız missionerləri adaya ayaq açıb, 1853-cü ildə isə Fransa bu adanı özünün müstəmləkəsi elan edib. XIX əsrin sonuna qədər adanın yerli sakinlərini istismar etməklə kifayətlənməyən Fransa qatı cinayət törətmiş məhkumları da bu adaya sürgün edib. Qızıl, bürünc, xrom, nikel, dəmir və sair filizləri ilə zəngin olan ada XX əsrdə Fransa tərəfindən istismar edilməyə başladı.

İstismara və zülmə dözməyən Yeni Kaledoniya sakinləri keçən əsrin 80-ci illərindən etibarən Fransa müstəmləkəçiliyindən canlarını qurtarmaq məqsədilə azadlıqları uğrunda mübarizəyə qalxdılar. 1987-ci ildə adada müstəqilliklə bağlı ilk referendum keçirildi. Referendum müstəqillik tərəfdarları tərəfindən boykot edildiyindən səsvermədə seçicilərin cəmi 59 faizi iştirak etdi, seçki məntəqələrinə gələnlərin isə yalnız 1,7 faizi müstəqilliyə səs verdi.

1998-ci ildə Numea sazişi imzalanıb, bu sazişə görə, 20 ildən sonra ada sakinləri iki il fərqlə üç müstəqillik referendumunu keçirmək hüququ qazanıblar. Sazişdə nəzərdə tutulan ilk referendum 2018-ci il noyabrın 4-də keçirilib. Bu səsvermə "dövlət səlahiyyətlərinin Yeni Kaledoniyaya verilməsi, tam məsuliyyət daşıyan beynəlxalq status, habelə vətəndaşlığın təşkili" ilə bağlı olub.

İkinci müstəqillik referendumu 4 oktyabr 2020-ci ildə keçirilib. 2021-ci ilin dekabrında isə üçüncü və yekun referendum keçirilib, bu referendumda 95 faiz Fransadan ayrılmağa qarşı çıxıb.

Adanın demoqrafik tərkibi süni surətdə dəyişdirilərək aborigenlərin sayı azalıb. Yeni Kaledoniyaya köçən "gəlmə"lərin sayı artıb. Faktiki olaraq adada hakimiyyət də onların əlindədir. İstər-istəməz bu da seçkilərə öz təsirini göstərir.

Onu da qeyd edək ki, ada sakinlərinin müstəqillik uğrunda mübarizələri hər dəfə Fransa hökuməti tərəfindən amansızlıqla yatırılıb. 2020-ci ildə Fransa hökuməti yerli əhalinin mövqeyini nəzərə almadan konstitusiya dəyişiklikləri edib. Bu da əhalinin qəzəbinə səbəb olub. Yeni Kaledoniyanın paytaxtı Numea şəhərində keçirilən etiraz aksiyaları 140 nəfərin həbs edilməsi, 3 nəfərin ölümü ilə nəticələndi. Fransa hakimiyyəti Yeni Kaledoniyanın paytaxtı Numea şəhərində komendant saatı tətbiq edərək, kütləvi tədbirləri qadağan etdi.

Fransa hökumətinin Yeni Kaledoniyanın daxilində destabillik yaratmaq siyasətinə və yerli əhalinin hüquqlarının kobud şəkildə pozulmasına etiraz edən əhali aksiyada Azərbaycan və Yeni Kaledoniya bayraqları dalğalandırmışdılar. Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə Azərbaycan Fransanın XXI əsrdə apardığı müstəmləkəçilik siyasətini kəskin tənqid edərək, öz azadlığı uğrunda mübarizə aparan xalqların yanında olacağını bəyan edib. Təsadüfi deyil ki, dövlətimizin başçısı 2024-cü ildə yerli telekanallara verdiyi müsahibəsində qəti olaraq qeyd etmişdir ki, Qoşulmama Hərəkatında sədrliyimiz başa çatır, amma Bakı Təşəbbüs Qrupu yaşayacaq. Biz fransız neokolonializminin ifşa olunmasını və fransız müstəmləkələrinin Fransanın zülmündən azad olunması prosesini dəstəkləyəcəyik.

Bakı Təşəbbüs Qrupunun nümayəndələrinə yanvarın 23-24-də Kanakidə təşkil olunan konqresdə iştirak üçün viza verilməməsi səbəbindən təşkilat sözügedən konqresin işinə onlayn qatılıb. BTQ-nin rəhbəri Abbas Abbasov konqresdə videoformatda çıxış edib. O, çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin kanak xalqına qarşı törədilmiş cinayətləri açıq şəkildə pislədiyini və müstəmləkə altında olan regionlara dəstəyini ifadə etdiyini bildirib.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***



## 29 yanvar bələdiyyə seçkiləri günüdür

# Azərbaycanın təcrübəsi seçkidən-seçkiyə zənginləşib

### Bələdiyyə seçkilərində şəffaflığın təmin olunması üçün zəruri addımlar atılıb

**"Azərbaycan müstəqilliyini bərpa edəndən sonra bütün sahələrdə olduğu kimi, seçki sahəsində də böyük təcrübə qazanıb. Demokratik ölkələrin, beynəlxalq təşkilatların təcrübəsi və milli dəyərlərin vəhdəti kimi formalaşan milli seçki sistemi ötən dövrdə Azərbaycanın çoxşaxəli inkişafına böyük töhfələr verib".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat bildirib ki, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanda keçirilən çoxsaylı seçkilərin hər biri əvvəlkilərdən daha keyfiyyətli şəkildə təşkil olunur. Seçkinin keyfiyyət göstəricisi demokratiya, ədalət və şəffaflıqdır. Bu mənada Azərbaycanın təcrübəsi seçkidən-seçkiyə zənginləşib. Bu gün Azərbaycanın seçki təcrübəsi müxtəlif ölkələr tərəfindən öyrənilir. 1993-cü ildən indiyə qədər keçirilmiş seçki proseslərində Azərbaycan cəmiyyəti heç bir maneə olmadan öz iradəsini ortaya qoyub. Növbəti bələdiyyə seçkiləri isə yanvarın 29-da keçiriləcək. Ötən seçkilərdə olduğu kimi, qarşıdan gələn bələdiyyə seçkilərində də şəffaflığın, demokratik prinsiplərin təmin olunması üçün bütün zəruri addımlar atılıb. "Milli Məclisdə "Bələdiyyələrin birləşməsi, fəaliyyəti, ayrılması və ləğv edilməsi haqqında" qanun qəbul edildikdən sonra 3000-ə qədər əhalisi olan yaşayış məntəqəsində 1 bələdiyyə olması qərara alınıb. Bununla da ölkədə bələdiyyələrin sayı təxminən iki dəfə azaldılıb. Mərkəzi Seçki Komissiyasının siyahısına uyğun olaraq, ölkədə 2025-ci il yanvarın 29-da 685 bələdiyyəyə seçkilər keçiriləcək. Həmin bələdiyyələr üzrə ümumilikdə 8 min 71 bələdiyyə üzvü seçiləcək. Adları bülletenlərə salınan namizədlərin sayı isə bundan iki dəfədən çox - 16 mindən artıqdır. Azərbaycanda fəaliyyət göstərən 26 siyasi partiyanın 23-ü bələdiyyə seçkilərində öz namizədləri ilə fəal iştirak edir. 9 qeyri-hökumət təşkilatının təmsilçiləri həm namizəd, həm də müşahidəçi kimi qeydə alınıblar", - deyə deputat əlavə edib.

Onun sözlərinə görə, bələdiyyələrin sayının azaldılmasına və fəaliyyətinin daha da güclənməsinə xidmət edən qanunların qəbulu bələdiyyələrə inamı artırıb. Bələdiyyə seçkilərinə yüksək maraq həm də ondan irəli gəlir ki, insanlar öz ərazilərinin inkişafına diqqət ayrılmasını istəyirlər və bunda dövlətin dəstəyinə arxalanırlar. İnanırlar ki, irəli sürülən təşəbbüslər, təqdim olunan layihələr dövlət tərəfindən dəstəklənəcək.

Deputat diqqətə çatdırıb ki, ölkəmizin seçki praktikasında uzun illərdir müvəffəqiyyətlə tətbiq olunan veb-kamera təcrübəsi seçki günü səsvermə məntəqələrində proseslərin gedişinin internet üzərindən hamı üçün açıq platformada tam şəkildə, arasıkəsilmədən, habelə, real vaxt rejimində dünyanın istənilən yerindən və heç bir qeydiyyat tələb olunmadan müşahidə etmək imkanı yaradır: "Müxtəlif kateqoriyalı aşkarlıq institutlarının seçki prosesində rahat, asan iştirakı və sərbəst fəaliyyətləri üçün yaradılan hərtərəfli və geniş şərait baxımından Azərbaycan öncül ölkələrdən biridir. Mərkəzi Seçki Komissiyası veb-kameraların səsvermə günü aşkarlığın və şəffaflığın təmin olunmasındakı müstəsna rolunu nəzərə alaraq, qarşıdan gələn bələdiyyə seçkilərində də 118 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində veb-kamera quraşdırılmasına qərar verib və həmin məntəqələrin siyahısı rəsmi dərc olunub. Seçki günü internet istifadəçiləri istər ölkə daxilindən, istərsə də xaricdən Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan, müasir standartlara cavab verən və ən yüksək görüntü effektinə malik veb-kameralar vasitəsilə seçki məntəqəsindəki bütün prosesləri - səsverməni, səslərin sayılmasını və nəticələrin müəyyənləşdirilməsini canlı və fasiləsiz müşahidə edə bilərlər".

K.Bayramov qeyd edib ki, bütün görülən və həyata keçirilən işlər bələdiyyə seçkilərində yüksək seçici fəallığı olacağından xəbər verir. Bununla müstəqil Azərbaycan dünyaya hüquqi, demokratik dövlət quruculuğuna və azad, şəffaf seçki keçirmək ənənəsinə sadiq olduğunu bir daha nümayiş etdirəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Gəncə bələdiyyə seçkilərinə tam hazırdır

**Yanvarın 29-da keçiriləcək bələdiyyə seçkilərinə bir gün qalır. Belə bir dövrdə Gəncədə fəaliyyət göstərən 38 saylı Gəncə birinci, 39 saylı Gəncə ikinci, 40 saylı Gəncə üçüncü və 41 saylı Gəncə-Samux-Goranboy seçki dairələrində hazırlıq işləri yüksək səviyyədə başa çatdırılmışdır.**



Seçki dairələrini əhatə edən məntəqələr hələ seçki ərəfəsində əsaslı təmir edilmiş, zəruri texniki və metodiki vəsaitlər, elektrik generatorları, eləcə də rabitə şəbəkəsi ilə təmin edilmişlər. Məntəqələrin hər birində sədr, katib və üzvlər, eləcə də seçkini izləyəcək müşahidəçilər üçün yerlər ayrılmışdır. Bir sözlə, bütün məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsinə yüksək səviyyədə hazırlıq işləri görülmüşdür.

Buna bir daha əmin olmaq üçün bir neçə məntəqədə olduq. 39 saylı Gəncə ikinci Seçki Dairəsinin 31 saylı məntəqəsində bütün hazırlıq işləri başa çatdırılmışdır. Seçicilərə bildirişlər paylanmış, daşınan və daşınmaz seçki qutuları hazırlanaraq möhürlənmiş, xəstə seçicilərin siyahısı tərtib edilmiş və onların seçkilərdə iştirakını təmin etmək üçün evlərə gedəcək qrupların üzvləri müəyyənləşdirilmiş, müşahidəçilər üçün yer ayrılmış, veb-kameranın işlək vəziyyəti bir daha nəzərdən keçirilmişdir.

Mərkəzi Seçki Komissiyasının məntəqə üzvləri üçün keçirdiyi treninqlər də başa çatmışdır. İki gün davam edən təlimlərdə iştirakçılara səsvermə günü məntəqənin açılması, səsvermə ilə bağlı məlumatların verilməsi saatları, səsvermədə iştirak edən vətəndaşların barmağının şəffaf mürəkkəblə işarələnməsi, səsvermə otağının təşkili qaydası, seçki günü müşahidəçilərin hüquqları, səslərin hesablanması və digər məsələlər barədə ətraflı məlumatlar verilmişdir.

Gəncədə seçkilərlə bağlı yüksək fəallıq var. İnsanların əksəriyyəti bələdiyyə seçkilərində iştirak etmək qərarı vermişlər. Apardığımız sorğular bunu göstərir. Şəhərin ağsaqqallarından olan Müharif Abbasov deyir ki, əvvəlki seçkilərdə olduğu kimi, bu siyasi kampaniyada da iştirak edəcək: "Bunun da əsas səbəbi ölkəmizin gündən-günə inkişaf etməsidir. Dövlət başçısının qətiyyətli siyasəti bizdə ruh yüksəkliyi yaradıb. Elə son illər Gəncədə görülən işlər də bütün sakinləri razı salır. Həyata keçirilən abadlıq və yenidənqurma işləri, park və xiyabanların yenilənməsi, küçə və prospektlərin abadlaşdırılması gəncəlilər tərəfindən razılıqla qarşılanır".

Şəhər sakini Elçin Əliyev də yanvarın 29-da keçiriləcək bələdiyyə seçkilərinə öz münasibətini bildirdi. Dedi ki, insanlar bələdiyyələrə böyük ümidlə baxırlar: "Odur ki, onlar bu seçkilərdə daha işgüzar insanların bələdiyyə üzvləri seçilmələrini istəyirlər. Mən özüm kimə səs verəcəyimi artıq müəyyənləşdirmişəm".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Biləsuvar: 10 bələdiyyə, 112 üzv, 221 namizəd

**Biləsuvarlılar həmişə olduğu kimi, yanvar ayının 29-da bələdiyyələrə keçiriləcək seçkilərdə də fəal, mütəşəkkil qaydada iştirak etməyə hazırlaşırlar. Bunun üçün rayonu əhatə edən dairələrin məntəqələrində bütün şərait yaradılmışdır.**

69 saylı Biləsuvar Dairə Seçki Komissiyasının sədri Əzizağa Hətəmovun dediklərindən məlum oldu ki, dairə üzrə 46 məntəqədə 53 min 660 nəfər səs verəcək. Seçki siyahıları son dəfə dəqiqləşdirilmişdir. Dairə üzrə ilk dəfə səs verənlərin sayı 236, seçki günü 18 yaşı tamam olanların sayı 49 nəfərdir. 100 yaşlı seçici Hacıağa İbrahimov Biləsuvar şəhərinin və 102 yaşlı Xədicə Cavadova Ovçubərə kəndinin sakinləridirlər. 80-100 yaş arasında olan seçicilərin sayı isə ümumilikdə 839 nəfərdir.

10 məntəqədə veb-kamera quraşdırılmışdır. Bununla bərabər, dairə üzrə qeydə alınmış 587 müşahidəçi də seçkinin gedişini izləyəcək. Müşahidəçilər və media nümayəndələri üçün bütün məntəqələrdə xüsusi yerlər ayrılmışdır.

Rayon üzrə bütövlükdə 10 bələdiyyəyə seçkilər keçiriləcək, 112 yer uğrunda 221 namizəd mübarizə aparacaq. Həmin namizədlərin 112 nəfəri YAP, 1 nəfəri Müasir Müsavat, 1 nəfəri Yeni Zaman, 1 nəfəri Haqq-Ədalət, 1 nəfəri Vəhdət partiyaları tərəfindən irəli sürülmüşlər. 105 nəfər isə öz təşəbbüsləri ilə seçkilərə qatılmışlar.

Məntəqələr seçkilərə tam hazırdır. Onların hər biri lazımi avadanlıqlar və vəsaitlərlə təchiz edilmiş, seçici bülletenləri məntəqələrə paylanılmışdır.

69 saylı dairənin 2 saylı məntəqəsində olduq. Məntəqə Biləsuvar şəhərinin mərkəzində şəhid polkovnik-leytenant Orxan Əkbərovun adını daşıyan Uşaq İncəsənət Məktəbində yerləşir. Burada seçkilərə, demək olar ki, nümunəvi şəkildə hazırlıq işləri görülmüşdür. Təmizlik, səliqə-sahman, eləcə də məntəqə üzvləri və seçicilər üçün yaradılan şərait belə deməyə əsas verir.

Öyrənirik ki, sözügedən məntəqə üzrə 1381 nəfər seçici qeydə alınıb. 80-100 yaş arasında seçicilərin sayı 13 nəfərdir. Veb-kameranın quraşdırıldığı məntəqə üzrə 5 seçici xəstə olduğundan DSK-ya ərizə ilə müraciət edib. Seçki günü məntəqə üzvü, müşahidəçi və polis işçisi daşınan qutu ilə həmin seçicilərə baş çəkib onların səsvermədə iştirakını təmin edəcəklər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Məntəqələr seçiciləri gözləyir



**42 saylı Sumqayıt birinci seçki dairəsinin 32-ci seçki məntəqəsi şəhər 3 saylı tam orta məktəbin binasında yerləşir. Məntəqə seçki komissiyasının sədri Ülkər Çəndərli dedi ki, seçkilərin şəffaf keçirilməsi üçün məntəqədə seçki təlimatları əsasında hər cür şərait yaradılıb.**

Məntəqənin katibi Sevinc İsmayılovadan öyrəndik ki, məntəqədə səs verəcək seçicilərin sayı 1134 nəfərdir. Onlar əsasən 2-ci mikrorayonun sakinləridir. Ərazi yaxın olduğu üçün yəqin ki, daşıyıcı qutuya ehtiyac olmayacaq. Lakin belə hal yaranarsa, xüsusi maşın ayrılıb.

Məntəqə üzvləri Lalə Məhyəddinova və Vəfa Əliyeva isə bildirdilər ki, seçkidə YAP-ın, eləcə də Ümid, Milli İstiqlal, Ana Vətən partiyalarının üzvləri və müstəqil namizədlər iştirak edəcəklər.

Onu da qeyd edək ki, məntəqə bütün texniki ləvazimatlarla təmin olunub.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin fevral ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Lənkəran | Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı | 04 |
| 2. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Hacıqabul | Hacıqabul, Şirvan, Kürdəmir, Salyan | 06 |
| 3. | **Daxili işlər naziri** Vilayət Eyvazov | Qusar | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən, Xızı | 07 |
| 4. | **Baş prokuror** Kamran Əliyev | Zərdab | Zərdab, Ucar, Kürdəmir, Ağdaş, Ağcabədi, Bərdə | 07 |
| 5. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | Zaqatala | Zaqatala, Balakən | 07 |
| 6. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Goranboy | Goranboy, Naftalan, Xocalı | 11 |
| 7. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Siyəzən | Siyəzən, Şabran, Xaçmaz, Quba, Qusar | 11 |
| 8. | **Ədliyyə naziri** Fərid Əhmədov | Şirvan | Şirvan, Hacıqabul, Sabirabad, Salyan | 14 |
| 9. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Xaçmaz | Xaçmaz, Quba, Qusar | 14 |
| 10. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Kürdəmir | Kürdəmir, Göyçay, Ucar | 14 |
| 11. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Yevlax | Yevlax, Mingəçevir | 14 |
| 12. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Abşeron | Abşeron, Sumqayıt, Xızı, Qubadlı, Zəngilan | 21 |
| 13. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Mingəçevir | Mingəçevir, Yevlax | 21 |
| 14. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Şirvan | Şirvan, Hacıqabul, Salyan, Neftçala | 21 |
| 15. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Şəmkir | Şəmkir, Gədəbəy | 21 |
| 16. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Ağstafa | Ağstafa, Qazax, Tovuz | 21 |
| 17. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Qusar | Qusar, Quba | 21 |
| 18. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | İsmayıllı | İsmayıllı, Ağsu | 21 |
| 19. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Hacıqabul | Hacıqabul, Şirvan | 24 |
| 20. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Qax | Qax, Zaqatala, Balakən | 27 |
| 21. | **Energetika naziri** Pərviz Şahbazov | Saatlı | Saatlı, Sabirabad, İmişli, Biləsuvar, Hacıqabul | 28 |
| 22. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | Naftalan | Naftalan, Goranboy | 28 |
| 23. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Lənkəran | Lənkəran, Astara | 28 |
| 24. | **Mədəniyyət naziri** Adil Kərimli | Qəbələ | Qəbələ, Şəki, Oğuz, Qax, Zaqatala, Balakən | 28 |
| 25. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | Abşeron | Abşeron, Zəngilan | 28 |
| 26. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | Quba | Quba, Qusar | 28 |
| 27. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | Masallı | Masallı, Lənkəran | 28 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Azərbaycanın və Qətərin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib

**Yanvarın 26-da Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Qətər Dövlətində səfərdə olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, səfər çərçivəsində Azərbaycanın Xarici İşlər Nazirliyi ilə Qətərin Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrin 5-ci iclası keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Qətər tərəfindən isə xarici işlər üzrə dövlət naziri Sultan bin Saad Al Mureyxi rəhbərlik edib.

Məsləhətləşmələr zamanı ikitərəfli siyasi və iqtisadi məsələlər, BMT, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib. Həmçinin ümumi maraq doğuran bir sıra regional və qlobal məsələlərlə bağlı fikir mübadiləsi aparılıb. Ticarət, sərmayə, kənd təsərrüfatı, turizm, təhsil və digər sahələrdə əməkdaşlıq istiqamətləri müzakirə edilib.

Nazir müavini Yalçın Rəfiyev səfər çərçivəsində, həmçinin Qətər Dövlətinin Xarici Ticarət Məsələləri üzrə dövlət naziri Ahmed bin Mohammed Al Sayed ilə görüşüb. Görüşdə Azərbaycan və Qətər arasında Hökumətlərarası Birgə Komissiyanın növbəti iclasının ən qısa müddətdə keçirilməsi, eləcə də qarşılıqlı ticarət missiyalarının və biznes forumlarının təşkil edilməsinin zəruriliyi qeyd olunub.

Yalçın Rəfiyev Dohaya səfəri zamanı Münaqişə və Humanitar Tədqiqatlar Mərkəzində (Center for Conflict and Humanitarian Studies - CHS) də olub, mərkəzin direktoru Ghassan Elkahlout və ekspertləri ilə görüşüb. Görüşdə Azərbaycanın xarici siyasəti, Cənubi Qafqaz və Yaxın Şərq regionlarında cərəyan edən hadisələr ilə bağlı fikir mübadiləsi aparılıb.

Bundan əlavə, Yalçın Rəfiyev Qətərin Corctaun Universitetinin nəzdində fəaliyyət göstərən Beynəlxalq və Regional Araşdırmalar Mərkəzinin (Center for International and Regional Studies (CIRC)) rəhbərliyi, müəllim və tələbə heyəti ilə görüşüb. Nazir müavini Azərbaycanın xarici siyasət prioritetləri, regional və qlobal məsələlərə dair Azərbaycanın baxışları, eləcə də Ermənistan-Azərbaycan postmünaqişə dövrü, normallaşma prosesi və işğaldan azad edilmiş Azərbaycan ərazilərində aparılan bərpa və yenidənqurma işləri barədə dinləyiciləri məlumatlandırıb və iştirakçıların suallarını cavablandırıb.

# İqtisadiyyat və sosial həyat

## "Şahdəniz"dən təzə xəbər var

### Yataqda daha bir platforma tikiləcək

**Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağında yeni platformanın inşa edilməsi planlaşdırılır. Bu, tamamilə yeni kompressor platforması olacaq və yatağın bəzi laylarından aşağı təzyiqli qazın Səngəçal terminalına çatdırılması üçün nəzərdə tutulub.**



Xatırladaq ki, "Şahdəniz" son onilliklər kəşf olunmuş ən böyük və perspektivli karbohidrogen yataqlarından biridir. Yataq Xəzərin dərinsulu şelfində, Bakıdan 70 kilometr cənub-şərqdə, suyun dərinliyinin 50 metrdən 600 metrədək dəyişdiyi ərazidə yerləşir. Bu nəhəng yatağın sahəsi 140 kvadratkilometrdən çoxdur.

"Şahdəniz" yatağı üzrə Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) 1996-cı il iyunun 4-də Bakıda SOCAR və xarici şirkətlərin konsorsiumu arasında imzalanıb. HPBS Milli Məclis tərəfindən ratifikasiya edilərək həmin il oktyabrın 17-də qüvvəyə minib.

1999-cu ildə kəşf olunan yataq 1,2 trilyon kubmetr qaz və 240 milyon ton kondensat ehtiyatlarına malikdir. Onun nəhəngliyini iki fazada işlənməsi faktı da göstərir.

2013-cü il dekabrın 17-də "Şahdəniz" konsorsiumu layihənin ikinci mərhələsinin işlənməsi üçün yekun investisiya qərarını elan edib. "Şahdəniz-2"dən əldə olunan mavi yanacaq 2018-ci ilin ortalarından "Cənub qaz dəhlizi"nə vurulur. "Şahdəniz-1" qazı isə 2006-cı ildən CQBK (Cənubi Qafqaz Boru Kəməri) vasitəsilə Gürcüstana, 2007-ci ildən BTƏ (Bakı-Tbilisi-Ərzurum) kəməri ilə Türkiyəyə nəql edilir. (Gürcüstan-Türkiyə sərhədində CQBK-yə qoşulan əlavə hissə Ərzurumadək uzanır və Səngəçaldan başlanan bu xətt bütövlükdə BTƏ kəməri adlanır).

"Cənub qaz dəhlizi"nin açılış mərasimi 2018-ci il mayın 29-da Bakı yaxınlığındakı Səngəçal terminalında keçirilib. Bu tədbir layihənin ilk iki seqmentinin - "Şahdəniz-2"dən hasilatın alınması və CQBK-nin genişləndirilməsinin başa çatması ilə mümkün olub. "Şahdəniz-2"nin yekun investisiya qərarının verilməsindən ilk hasilatının əldə olunmasınadək 4 ildən bir az çox, "Cənub qaz dəhlizi"nin təməlqoyma mərasimindən açılışınadək 4 ilə yaxın vaxt keçib. Bu da belə nəhəng layihələrin işlənməsi üçün çox qısa vaxt hesab olunur. Bu uğur Azərbaycanın "Şahdəniz"dən əvvəl həyata keçirdiyi qlobal neft-qaz və ixrac layihələrinin təcrübəsinə əsaslanır.

Dəhlizin növbəti hissəsi TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) 2018-ci il iyunun 12-də istismara daxil olub. Sonuncu, dördüncü seqment TAP (Trans-Adriatik Qaz Boru Kəməri) 2020-ci ilin sonuncu günü işə düşüb.

2018-ci il mayın 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimində Prezident İlham Əliyev demişdir: "1994-cü ildən sonra ikinci böyük kontrakt "Şahdəniz" qaz yatağı üzrə imzalanmışdır. Onu da qeyd etməliyəm ki, bu kontrakt 1996-cı il iyunun əvvəlində məhz Xəzər Neft-Qaz Sərgisinin keçirildiyi gündə imzalanmışdır. Beləliklə, Azərbaycan dünyaya özünü nəinki neft ölkəsi, həm də qaz ölkəsi kimi təqdim etdi. Onu da yaxşı xatırlayıram ki, o vaxt dünyada enerji təhlükəsizliyi məsələlərində qaz amili o qədər də ciddi rol oynamırdı. Hətta qaz yataqlarının işlənilməsi o qədər də böyük maraq doğurmurdu. Çünki mənfəət neft yataqları ilə müqayisədə daha aşağı idi. Ona görə bu layihəyə investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Ancaq bu gün, bu tarixi gündə "Cənub qaz dəhlizi"nin açılışını qeyd edərkən biz görürük ki, bu, nə qədər vaxtında atılmış və müdrik addımdır. "Şahdəniz" qaz yatağı "Cənub qaz dəhlizi"nin əsas resurs bazasıdır".

"Şahdəniz " Azərbaycanı dünyada qaz ixracatçısı kimi tanıdan yataqdır və bu gün artıq 12 ölkə - Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiya bizdən mavi yanacaq alır.

Hazırda bu yanacaq "Şahdəniz-1"də "Şahdəniz Alfa" , "Şahdəniz-2"də isə "Şahdəniz Bravo" platformaları vasitəsilə çıxarılır. Təsadüfi deyil ki, bu qurğuları "Şahdəniz"in qoşa qanadı adlandırırlar.

Yaxın günlərdə isə ictimaiyyətə yeni platformanın tikintisi layihəsi təqdim ediləcək. "Şahdəniz" layihəsinin operatoru olan BP-nin şirkətxarici kommunikasiyalar üzrə rəhbəri Tamam Bayatlının sözlərinə görə, fevralın üçüncü həftəsində platformanın tikintisinin ətraf mühitə təsirinin qiymətləndirilməsi hesabatı ilə bağlı ictimai dinləmələr keçiriləcək. Yekun maliyyə qərarı (FID) da bu il qəbul ediləcək. Böyük investisiya tələb edən bu yeni qurğu insan iştirakı olmadan fəaliyyət göstərəcək. "Alfa" və "Bravo" platformalarından aşağı təzyiqli qaz burada toplanacaq və təzyiq artdıqdan sonra Səngəçal terminalına yönləndiriləcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Ötən il KOB evlərində sahibkarlara 456 minə yaxın xidmət göstərilib

**Sahibkarlar KOB evlərinə daha çox biznes fəaliyyəti üçün zəruri sənədlər, vergi və gömrük məsələləri, kommunal xidmətlər üçün müraciət ediblər.**

2024-cü il ərzində KOB evlərində sahibkarlara ümumilikdə 455944 xidmət göstərilib. Bu xidmətlərin 307 mindən çoxu "Bakı KOB evi"nin, 112 mindən çoxu "Yevlax KOB evi"nin, 22 mindən çoxu "Xaçmaz KOB evi"nin, 14 min 600-dən çoxu isə "Xaçmaz KOB evi"nin Xudatdakı xidmət mərkəzinin payına düşür.

KOB evlərində sahibkarlara göstərilmiş xidmətlərin 408 minə yaxını dövlət qurumları ("G2B"), 48 mindən çoxu isə biznes qurumları ("B2B") tərəfindən təqdim edilib.

Sahibkarlar KOB evlərinə daha çox yükdaşımaları həyata keçirmək üçün icazə blankı, fərqlənmə nişanı, mənşə sertifikatı, fiziki şəxsin vergi uçotuna alınması və digər vergi məsələləri, gömrük, kommunal və digər ödənişlər, bank xidmətlərindən istifadə üçün müraciət ediblər.

Sahibkarların KOB evlərində göstərilən xidmətlərdən məmnunluq səviyyəsi 98% təşkil edib.

Qeyd edək ki, KOB evləri Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) strukturuna daxildir. KOB evlərində ümumilikdə 50-dən çox dövlət və özəl qurum tərəfindən sahibkarlıq fəaliyyəti üçün zəruri olan 400-dən çox "G2B" və "B2B" xidmətlər göstərilir.

## Naxçıvanda hiperintensiv bağların salınması üçün dövlət dəstəyi mexanizminin tətbiqinə başlanılacaq

**"İlk dəfə Naxçıvanda hiperintensiv bağların salınmasına görə dövlət dəstəyi mexanizminin tətbiqinə başlanılacaq".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Kənd Təsərrüfatı Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Vüqar Hüseynov yeni subsidiya əmsalları ilə bağlı keçirilən brifinqdə deyib.

O bildirib ki, Naxçıvanda hiperintensiv bağların salınmasına görə yüksək subsidiya əmsalları müəyyənləşib.

"Qərara əsasən, muxtar respublikada hiperintensiv meyvə bağlarının salınmasına görə çəkilən xərclərin 70 faizi dövlət tərəfindən birdəfəlik əkin subsidiyası formasında qarşılanacaq", - deyə o diqqətə çatdırıb.

Nazirlik rəsmisi ölkədə şəkər çuğunduru üzrə də subsidiyasının miqdarının artırıldığını əlavə edib: "Müasir suvarma sistemləri ilə təchiz olunmuş sahələrdə əkilən şəkər çuğunduru üzrə subsidiyanın miqdarı hər tona 19 manatdan 22 manata qaldırılıb. Müasir suvarma sistemləri ilə təmin olunmamış sahələrdə isə subsidiya 18 manatdan 19 manatadək artırılıb", - deyə o bildirib.

## Reinteqrasiya tədbirləri ilə ötən il 216 uşaq dövlət uşaq müəssisələrindən ailələrinə qaytarılıb

### 182 uşağın ailələri tərəfindən müəssisələrə verilməsinin qarşısı alınıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi dövlət uşaq müəssisələrindən uşaqların ailələrinə qayıdışı, onların ailə mühitində böyüməsi üçün hüquqi, sosial, tibbi-psixoloji və s. dəstək tədbirlərini davam etdirir.**

Reinteqrasiya yönümlü bu tədbirlər nəticəsində ötən il daha 216 uşaq dövlət uşaq müəssisələrindən ailələrinin himayəsinə qaytarılıb.

Uşaqların həmin müəssisələrə düşməsinin qarşısının alınması üçün də həssas qruplara aid uşaqlar və ailələri ilə bağlı Ailə İnkişaf Planları əsasında sosial-psixoloji dəstək və maarifləndirmə işləri aparılır.

Görülmüş preventiv tədbirlər nəticəsində ötən il 182 uşağın ailələri tərəfindən müəssisələrə verilməsinin qarşısı alınıb, həmin uşaqların öz ailələrində saxlanması təmin olunub.

Ümumilikdə, ötən dövrdə agentlik tərəfindən 664 uşağın müəssisələrdən ailələrinə qayıdışına nail olunub, 547 uşağın ailələri tərəfindən müəssisələrə verilməsinin qarşısı alınıb.

## Makroiqtisadi dayanıqlılıq üzrə işçi qrupunun növbəti iclası keçirilib

**"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulmuş tədbirlərin tam, vaxtında və effektiv icrasının təmin edilməsi və aidiyyəti dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə yaradılmış Makroiqtisadi dayanıqlılıq üzrə işçi qrupunun növbəti iclası keçirilib.**

Mərkəzi Bankdan bildirilib ki, sədrliyi Mərkəzi Banka həvalə edilmiş Makroiqtisadi dayanıqlılıq üzrə işçi qrupunun iclasında "Daxili və xarici təsirlərə dayanıqlılıq məqsədi"nin 3 fəaliyyət istiqaməti çərçivəsində təsdiq edilmiş 15 tədbirin 2024-cü ilin yekunları üzrə monitorinq və qiymətləndirmə nəticələrinə dair ətraflı məlumat təqdim olunub. Həmçinin həyata keçirilən fəaliyyətlərin effektivliyinin daha da artırılması istiqamətində işçi qrupunun üzvləri və Mərkəzi Bankın məsul əməkdaşları ilə geniş müzakirələr aparılaraq növbəti addımlar müəyyən edilib.



Mərkəzi Bankın sədrinin birinci müavini və işçi qrupunun sədri Əliyar Məmmədyarov strategiya istiqamətində qurum tərəfindən həyata keçirilmiş təşəbbüslər barədə məlumat verib. Daha sonra işçi qrupunun sədr müavini, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Ayaz Müseyibov il ərzində görülmüş işlər və çağırışlarla bağlı məlumatlar təqdim edib.

İclasda Mərkəzi Bankın, İqtisadiyyat Nazirliyinin, Maliyyə Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ədliyyə Nazirliyinin, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin, Dövlət Neft Fondunun, İpoteka və Kredit Zəmanət Fondunun, Əmanətlərin Sığortalanması Fondunun və Aqrar Sığorta Fondunun nümayəndələri iştirak edib.

## DİF 2025-də süni intellekt mövzusu

### Sənayedə yeni era başlayır

**Dünya İqtisadi Forumu (DİF) qlobal və regional səviyyədə planetin başlıca siyasi, sosial və iqtisadi problemlərinin müzakirəsi üçün ideal platformadır. Bu baxımdan, DİF üzvlərinin bu il 55-ci dəfə toplanıb ötən bir ildə iştirakçı ölkələrin iqtisadi həyatında hansı yeniliklərin baş verdiyini təhlil etməsini və yeni hədəflər müəyyənləşdirməsini yol xəritəsi kimi də dəyərləndirmək olar.**




Forumda müzakirə olunan 5 əsas mövzudan biri "İntellektual əsrdə sənayelər" Industries in the Intelligent Age) adlanırdı. Ayrı-ayrı panellərdə təşkil olunan debatlar zamanı yeni dövrün çağırışları, süni intellektin (Sİ) təklif etdiyi imkanlar, yaratdığı təhlükələr və gələcəkdə transformasiya potensialı ilə bağlı müxtəlif formatlarda fikirlər səsləndi. Qeyd edək ki, süni intellekt insan qabiliyyətlərini, məsələn, düşünmə, öyrənmə və qərar vermə kimi bacarıqları simulyasiya (yəni azad etmək) edə bilən texnologiya və sistemlər toplumuna deyilir. Bu toplum məlumatlar və mürəkkəb alqoritmlərdən istifadə edərək, maşınlara birbaşa insan müdaxiləsi olmadan müxtəlif vəzifələri yerinə yetirməyə imkan verir. Odur ki, bu gün müasir dünyada sənaye və texnologiya islahatlarının əsas sütunlarından birinə çevrilib və tibb, avtomobil sənayesi, marketinq və ticarət kimi bir çox sahədə mühüm rol oynayır. O, yalnız texnoloji bir alət deyil, həm də cəmiyyətlər, sənayelər və hökumətlər üçün strateji mexanizmlərin müəyyən olunmasında mühüm rol oynayır.

Bu istiqamətdə DİF öz tərəfdaşları vasitəsilə daha böyük təsirə nail olmaq üçün dövlət və özəl sektorların səylərini birləşdirir. Süni intellektin sənayeni inqilabi şəkildə dəyişdirməsi və tam potensialını reallaşdırması üçün aparılan müzakirələr gələcək addımları müəyyənləşdirir. Forum çərçivəsində "İntellektual əsrdə sənayelər" mövzusunda 120-dən çox natiqin təmsil olunduğu 30-dan yuxarı sessiya keçirildi. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Strateji planlaşdırma şöbəsinin baş məsləhətçisi Aygün Əhmədova deyir ki, DİF-in keçirdiyi sorğuların nəticələrinə əsasən, rəhbər şəxslərin 83 faizi süni intellekti öz təşkilatları üçün strateji prioritet olaraq qəbul edirlər. Lakin müxtəlif sektorlar arasında süni intellektin tətbiqi və inkişafı səviyyələrində nəzərəçarpan fərqlər var: "Forumda Sİ-nin enerji sektorunda rolu, xüsusən neft və qaz hasilatında istehsalın artırılması və ətraf mühitə təsirin azaldılması yolları müzakirə olunub. Qida istehsalı və təchizat zəncirində proseslərin təkmilləşdirilməsində də süni intellektin rolu və dayanıqlı inkişaf təşəbbüsləri vurğulanıb. Spikerlər Sİ-nin biznes transformasiyasındakı rolu, şirkətlərin rəqəmsallaşmada üzləşdiyi çağırışlar və tərəfdaşlıqların əhəmiyyətindən danışıblar. Bulud texnologiyaları və Sİ vasitəsilə məlumatların idarə edilməsi, müştəri təcrübəsinin təkmilləşdirilməsi və rəqəmsal infrastrukturun gələcək perspektivlərindən söz açılıb. Qeyd olunub ki, bulud texnologiyalarında süni intellektin tətbiqi sürətlənsə belə, məlumat inteqrasiyası ilə bağlı problemlər var. Bildirilib ki, şirkətlərin 74 faizi süni intellektin genişmiqyaslı tətbiqi ilə bağlı çətinliklərlə üzləşir. Yalnız 16 faiz qurum bu prosesə tam hazırdır. Sənayelər öz biznes strategiyalarını təkcə bu əsas texnoloji dəyişikliklərə görə deyil, həm də seysmik geoiqtisadi dəyişiklikləri nəzərə alaraq uyğunlaşdırmalıdırlar. Liderlər bu dərin və struktur dəyişikliklərə uyğunlaşmaq və onlardan tam yararlanmaq üçün yeni liderlik alətləri ilə təchiz olunmalıdırlar".

Məlumdur ki, indi daxiliyanma mühərrikləri ilə işləyən avtomobillərdən elektromobillərə keçid dövrüdür. Bu, ətraf mühitin qorunması, ekoloji tarazlığın təmin olunması üçün vacibdir. "Yaşıl avtomobil" son illər keçirilən bəzi qlobal tədbirlərdə də müzakirə mövzusu kimi gündəliyə gəlir. DİF 2025-də də "Elektrikli avtomobillərin təchizat zəncirlərinin düzgün qurulması" mövzusunda panel müzakirə keçirilib. Avtomobil sənayesinin liderləri, siyasətçilər və ekspertlər elektrikli avtomobillərin təchizat zəncirlərinin optimallaşdırılması və davamlığının təmin edilməsi məsələlərini müzakirə ediblər. Bildirilib ki, elektrikli avtomobil bazarının sürətlə genişlənməsi ilə əlaqədar olaraq təchizat zəncirlərinin dayanıqlılığı və şəffaflığı daha çox əhəmiyyət kəsb etməyə başlayıb. Həmçinin batareya istehsalı üçün vacib olan xammalın, məsələn, litium və kobaltın etibarlı və etik mənbələrdən təmin edilməsi zərurəti vurğulanıb.

55-ci forumun "İntellektual əsrdə sənayelər" panelində müzakirə olunan maraqlı mövzulardan biri də "İntellektual əsrdə sənayelər: Kriptovalyuta yol ayrıcında" adlanırdı. Müzakirələr zamanı rəqəmsal aktivlərin, kriptovalyutaların qlobal maliyyə sisteminə sürətli, ucuz və səmərəli təsiri vurğulanıb. Qeyd olunub ki, kriptovalyutalar və blokçeyn texnologiyası bank xidmətlərinə çıxışı olmayan insanlar üçün əlverişli fürsətlər yaradır. İnsanlar öz maliyyə vəsaitlərini daha sərbəst idarə edə və müxtəlif iqtisadi imkanlardan yararlana bilirlər.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan komandasının dünya qar polosu yarışında növbəti qələbəsi



**Azərbaycanın "Land of Fire" komandası yanvarın 24-26-da İsveçrənin Sankt Moritz şəhərində keçirilən qar polosu üzrə 40-cı dünya kubokunda növbəti qələbəsini qazanıb.**





AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə növbəti dəfə yarışa qatılan "Land of Fire" komandası finalda İsveçrənin "The Kusnacht Practice" komandası ilə qarşılaşıb və ikinci yer üzrə kuboka sahib olub.

Qeyd edək ki, komandamız Sankt Moritzdə iki dəfə - 2022-ci və 2023-cü illərdə qar polosu üzrə dünya kubokunu qazanıb.

Yarışlar zamanı Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycan pavilyonu da fəaliyyət göstərib.

İştirakçılar Azərbaycan pavilyonunda Heydər Əliyev Fondunun "Azərbaycan. Təbiətin sehrində" nəşrindəki foto və video materiallar, eləcə də qədim çövkən oyununa dair müxtəlif sərgilərlə tanış ola bilib.

Pavilyonda Azərbaycanın müxtəlif milli brendləri - milli şirniyyatları təqdim edən "Xurcun", qədim üzümçülük və şərabçılığın tarixini yaşadan "Meysəri, "MEYVİ", "I Love Baku"nun məhsulları sərgilənib. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi qonaqlar üçün ölkəmizin görməli yerlərinə virtual səyahət də təşkil edib, "AzerGold" QSC isə qızıl və gümüş sikkələr nümayiş etdirib.


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Cəmiyyətin sosial-emosional inkişafı istiqamətində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi" adlı müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 07 fevral 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 10 fevral 2025-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5036)**

***Müsabiqə komissiyası***

## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (**Tel.: (012) 539-59-33**) zəng vura bilərsiniz.*


# Heydər Əliyev Fondu təqdim edir: Qəbələdə "Qış nağılı"

**Fevralın 7-10-da Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin, Bakı Musiqi Akademiyasının və "Gilan"ın dəstəyi ilə Qəbələdə ilk dəfə "Qış nağılı" Beynəlxalq Musiqi Festivalı keçiriləcək.**




AZƏRTAC xəbər verir ki, "Qış nağılı" 2009-cu ildən ənənəvi təşkil olunan Qəbələ Beynəlxalq Musiqi Festivalının davamı olaraq sənətsevərləri bir araya gətirəcək.

"Qış nağılı" Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Almaniya, Böyük Britaniya, İtaliya, Polşa və Rusiyadan dünyaşöhrətli musiqiçilər - ifaçı və dirijorlar, musiqi kollektivləri çıxış edəcəklər.

**Çıxış edənlər:**

Azərbaycandan Fərhad Bədəlbəyli, Emil Əfrasiyab, Murad Adıgözəlzadə, Nəzrin Aslanlı, Nigar Cəfərova, Yeganə Axundova, Yusif Eyvazov. Musiqi kollektivlərindən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestri, Bakı Kamera Orkestri, Bakı Xoreoqrafiya Akademiyasının şagird və tələbələri, "Qaytağı" instrumental ansamblı. Almaniya və Rusiyanı təmsil edən Aydar Qaynullinin "Eyforiya" ansamblı, Böyük Britaniyadan Dmitri Sitkovetski, İtaliyadan Anastasiya Bartoli, Sergio Vitale, Polşadan "Glassduo" ansamblı.

**Proqram:**

Qəbələnin müxtəlif mədəniyyət ocaqlarında maraqlı proqram təqdim ediləcək, vokal, kamera instrumental musiqi axşamları, balet tamaşaları təşkil olunacaq: Qara Qarayevin "Yeddi gözəl" baletindən, Niyazinin "Arzu" əsərindən, Üzeyir Hacıbəylinin "Koroğlu" operasından, Antonio Vivaldinin "İlin fəsilləri" silsiləsindən, Cakomo Puççininin "Turandot", Cüzeppe Verdinin "Traviata" operalarından, Pyotr Çaykovskinin "Şelkunçik" baletindən parçalar, eləcə də Edvard Qriq, Frederik Şopen, İohann Sebastyan Bax, Volfqanq Amadey Motsart və digər bəstəkarların müxtəlif musiqi kompozisiyaları.

**Tamaşaçıların iştirakı:**

Tamaşaçılar iTicket.az saytından ödənişsiz qeydiyyatdan keçməklə tədbirə qoşula bilərlər.


## "Səba" ASC-nin səhmdarlarının nəzərinə!

**28 fevral 2025-ci il tarixdə saat 15:00-da** Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, 44 ünvanında (Qlobus Plaza BM, 2-ci mərtəbə) "Səba" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

"Səba" ASC-nin səhmdarlarının növbədənkənar ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

1. "Səba" ASC-nin əvvəllər emissiya edilib yerləşdirilmiş və geri alınmış səhmləri barədə;
2. "Səba" ASC-nin yeni redaksiyada Nizamnaməsi barədə;
3. "Səba" ASC-nin təsisçiliyi və onun təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyətlərin təsisçiliyi ilə yaradılmış hüquqi şəxslərin nizamnamə kapitalındakı payların satılması haqqında.

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiq edən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyəti təsdiq edən sənəd və nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə təqdim etməlidirlər.

**Əlaqə telefonu: +994705000097**
**Ünvan: AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, 60**

***"Səba"ASC-nin İdarə Heyəti***

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri Süleyman İsmayılov və şöbənin kollektivi Əjdər Səmədzadəyə atası

**ELMAN SƏMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1975-ci il, 1977-ci il, 1979-cu il və 1980-ci il buraxılış, 10a siniflərinin məzunları sinif yoldaşları Mayis, Aşır, Vaqif və Vidadi Hüseynovlara qardaşları

**YAVƏR DAVUD OĞLU HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3406
Sifariş 179

Qiyməti 60 qəpik